№2 MAY-İYUN-2022 - Qadın - Ailə - Jurnalı

GÜLÜSTAN
Qadın-Ailə jurnalı
№2-May-İyun

Təsisçi:
Gürcüstan Gənclərinə
Yardım və Maarifləndirmə
Təşkilatı

Redaktor:
Lamiyə HACIYEVA

Redaktor müavini:
Mirvari NAĞIYEVA

Redaksiya heyəti:
Mirvari Nağıyeva
Nabat Eminova
Nərgiz Bağırova
Nərgiz Tanrıverdiyeva

Dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: GÜRCÜSTAN,
Qardabani şəhəri,
Kolxoz k. №4.
Tel: (+995) 551 47 48 98
(+995) 511 16 46 96

e-mail:
gulustanjurnali@hotmail.com

Dəyərli oxucu!

Yer üzünün ən şərəfli məxluqu və xəlifəsi olma şərəfinə nail olan insan öz xüsusiyyətləri ilə seçilir. Insan ona verilən ağıl nəticəsində yaxşıların yaxşısı da ola bilər, ən rəzil varlıq da. İnsanlıq keyfiyyətini qoruyub saxlaya bilmək üçün Yaradanın qoyduğu qanunlar çərçivəsindən kənara çıxmamaq, əmr ediləni yerinə yetirmək böyük əhəmiyyət kəsb edir.

İnsanın sahib olduğu yüksək mərtəbəni yalnız Allaha gedən yol ilə əldə edir. Uca Allahın istədiyi yaşam tərzinə hakim olmayan cəmiyyətlər təhlükəli insanların idarəsində olmağa məhkumdurlar. Quran əxlaqının hakim olduğu cəmiyyətlərdə isə şəfqətli, mərhəmətli, xoşgörüşlü, fədakar, yetkin, yalnız Allahın razılığını düşünərək hərəkət edən, Allah üçün sevən fərdlər yetişər.

Əziz oxucu!

Bu aykı sayımızda sizlər üçün hazırladığımız əsas mövzu marka, alış-veriş aludəçiliyinin səbəbləri və yaratdığı problemlərdir. Hazırda dünyada tüğyan edən marka fırtınası israfdan başqa bir işə yaramır. Maraqlanıb axtarsaq marka olmayan, amma çox keyfiyyətli məhsulları münasib qiymətə əldə edə bilərik. Bununla da israfdan uzaqlaşar, büdcəmizin zənginləşməsinə də səbəb olarıq. Sırf tanınmış firmanın istahsalı olduğu üçün dəyərindən qat-qat baha satılan məhsullar çox zaman bir o qədər keyfiyyətli də olmur. Marka adı altında bizə reklamlarla təsir edərək, hər yöndən zərər yetirən şirkətlərin bizi aldatmasına fürsət verməyib, diqqətli araşdırma etdikdən sonra alış-veriş etsək biz qazanmış olarıq.

Gələn saykı nömrəmizdə sizlərlə yenidən görüşmək diləyi ilə, Allaha əmanət olun!

İÇİNDƏKİLƏR

4

Gerçəkləri Görə Bilmə Xoşbəxtliyi

Lamiyə Hacıyeva



6

Seçim azadlığı olan insanlar yetişdirin!

f.f.d. Gülnarə SEYİDOVA



19

Müsahibə



22

Könül iqlimindən incilər

Osman Nuri Topbaş



26

Ən Sevilənin Sevgilisi HZ. AİŞƏ (r.anhə)

Nəzrin Hüseynova



Moda qasırğası
Xədicə ŞAHİN.....8

İnsanı həlak edən ən ağır kəlmə
Samirə MAHMUDOVA.....10

Dünyanın məsum qitəsi
Məryəm DƏMİR.....12

Səhra Həzərsiz qaldı...
Nəslihan GÜNƏŞ.....14

Həzrət Məhəmməd Mustafa
Prof. dr. Nejdet TOSUN.....16

Əs-Səmi
Aygün MƏMMƏDZADƏ.....25

Cəsarətli və müdrik qadın Sara Xatun
Aygün HAJIYEVA.....28

Sevgi və sədaqət məktəbi
İlhamə HƏSƏNLİ.....30

Corabdan gəlincik.....33
Səbinə QASIMOVA

Uşaq serebral iflici.....34
Vüqarə MƏMMƏDOVA

Gülxətmi bitkisi
Kəmalə HÜSEYNOVA.....36

LƏZZƏT DÜNYASI.....38

Nəsihət.....40



Aynadakı yalan

Hz. Mövlana buyurur:

"Ey dünya qonağı, aynadakı son naxışa bax! Bir gözəlin qocalığındakı çirkinliyini və bir sarayın xarabalığa çevriləcəyini düşün və aynadakı yalana aldanma!..."

"Sən, ey baharın gözəlliyinə qarşı heyrətlənən! Bir də payızın saralmış halına və soyuqluğuna bax!"

Lamiyə Hacıyeva



GERÇƏKLƏRİ GÖRƏ BİLMƏ XOŞBƏXTLİYİ

Fani həyatda insanoğlunu yoran bir çox amillər var. Bu amilləri bəzən biz özümüz ortaya çıxarırıq, bəzən də bizlərdən asılı olmayan səbəblərdən meydana gəlir. Bu yazıda özümüzün ortaya çıxardığımız və bizim hər birimizi yoran və hətta şikayətləndiyimiz amildən söhbət açacağam.

Son illər gedib gəzdiyimiz, gördüyümüz yerlərdə söhbət etdiyimiz insanlardan söz açacağım amillərlə çox qarşılaşmışıq və bu qarşılaşdığımız vəziyyət illər əvvəl meydanda yox idi. O olmadığında səmimiyyət var idi. Əgər bir yerdə səmimiyyət və iradə varsa sözü gedən amilin yaranması üçün fürsətdən söz gedə bilməz.

Olanla deyil olmayanlarla çox məşğul olmaq bizi yoran amillərin meydana çıxmasına səbəbdir. Olmayanı varmış kimi göstərməyə çalışırıq. Bununla həyatın hər sahəsində qarşılaşmaq olar. İkili münasibətlərdə, məişətdə, alış-verişdə, dostluqda, yol yoldaşlığında, tədris yerlərində bu böhran sarmaşıq kimi bizlərin həyatını öz ağuşuna alıb.

İkili münasibətlərdə sevginin, hörmətin, səmimiyyətin olması gərəkən münasibətlərdə sevgini və hörməti nisbətən görürük ancaq söz səmimiyyətə gəldiyində nədənsə tamlığı ilə görə bilmirik bunu. Var olandan çox olmayanı ortaya qoymağın hayına düşürük.

Məişətdə də elədir, alış-verişdə də elədir. Satan satdığının necə olduğundan çox, necə olmadığını göstərməyə çalışır, alıcı da aldığı məhsulu daha aşağı qiymətə almaq istəsə də maddi imkanının daha

yüksək səviyyədə olduğunu göstərmək dərdindədir. Dostluqda da eyni səhnələri görürük, dostlar arasında olmayan duyğuları varmış kimi göstərməyə səy göstəririk. Bəzən hər kəs öz daxilində səmimiyyətsiz olduğunu bilir ancaq səmimiymiş kimi göstərməyə çalışır, çünki bilir dostluq səmimiyyət duyğusu üzərinə inşa olunur. Madəm ki, bunu bilirik nəyə görə olmayan bir duyğunu varmış kimi göstərib üzərinə nəsə inşa etməyə çalışırıq? Əslində dostluqda necə olmağımız gərəkdiyini bildiyimiz halda bildiyimiz istiqamətdə davranmırıq. Eləcə də yol yoldaşlığında da bu belədir. Necə davranmağımız gərəkdiyini bilirik, lakin o istiqamətdə irəliləmirik.

Bu halların baş verməsində insanın başqalarını təqlid etmək eşqi dayanır. Başqalaşmaq arzusu dayanır.

İnsanoğluna verilmiş qiymət biçilə bilinməyəcək üç nemət vardır: ağıl, şüur və iradə. Bu nemətlər insanoğlunu yaradılmış bütün məxluqatdan daha üstün qılar. Əgər bizlər İlahi lütf olan bu nemətləri istifadə etməzsək necə haqqı nahaqdan ayırd edə bilərik? Bu mümkün olmaz.

Məhz elə bu səbəbdən də bizlərə verilən İlahi nemət olan iradəni aktiv hala gətirərək "başqalaşmaq arzusu"nun bizləri sürüklədiyi istiqaməti görməliyik. İnsanlığın istiqamət ala bilməsi üçün olanlarla məşğul olması şərtdir. Olmayanlarla məşğul olmaq zaman israfı olaraq bizlərə geri dönər. Axı həyat gerçəklərdən ibarət bir səhnədir.

Bizlər başqalaşaraq şəkillərin montaj edildiyi kimi gerçək həyatı da montaj etmək istəyirik. Olanı deyil, olmayanı görmək və göstərmək istəyirik. Ancaq həyatın gerçək olduğunu, var olanların sərgiləndiyi bir meydan olduğunu unuduruq.

Lev Tolstoy bu haqda gözəl deyir: Xoşbəxtliyim bəlkə də bundan irəli gəlir, məndə olanlara sevinir; olmayanların üzərinə də düşmürəm.

Həyat filim deyil ki, istədiyimiz kimi istiqamət verək, istədiyimiz kimi oynayıb nümayiş edək. Bizlər özümüzü aldadaraq olmayanlarla məşğul olarkən həyat gerçəkləri üzümüzə bir şillətək vurar və o zaman ayılarıq.

Ümidim onadır ki həyatın şilləsini almadan oyanaq və həyatımızı əskikliklərimizi görərək onları tamamlamağa çalışaraq keçirək. Olanlarla məşğul olaq, olmayanlarla məşğul olmağın bizi necə ziyana apardığını dərk edək. Olmayanları varmış kimi göstərmək iradəsizliyin nişanəsədir.

Həyatda hər birimiz bir şey üçün çalışıb çabalayırıq - xoşbəxt olmaq üçün. Ancaq xoşbəxtlik gerçəkləri görə bilməklə mümkündür. İnsan yalanlarla, olmayanlarla özünü bir müddət ovuda bilər, sonra həyat bütün gerçəkləri ilə gələr durar qarşımızda o zaman nə edəcəyimizi bilmərik və çox böyük psixoloji böhran baş verər. Bizlər də bu səbəbdən daha ilk əvvəldə olanları dərk etməli olmayanlarla məşğul olmamalıyıq ki, həqiqi və qalıcı xoşbəxtliyi tapa bilək.

Nazım Hikmətində dediyi kimi, «Daha son sözü söyləmədi həyat. Bəlkə sabahlar, "Xoşbəxt" sonlar var.»

f.f.d. Gülnarə SEYİDOVA
g.seidova@yahoo.com



Seçim azadlığı olan insanlar yetişdirin!

İnsanlar nə üçün "marka"ya üstünlük verirlər?

Göstəriş üçün?

Varlıyam düşüncəsini yaratmaq üçün?

Keyfiyyət üçün? (Fərdlərdən asılı olaraq bu sualların cavabı fərqlidir).

Bir tərəfdə zənginlik, fərqlilik, alternativlər, lüks həyat varkən, digər tərəfdə isə ciddi bir laqeydlik, biganəlik və yalnızlıq yaşanır. Cəmiyyətdə gedərək artan maddi təminatın insanların üzərindəki təzyiqi, psixoloji narahatlıqlara səbəb olur. Yəni zənginlər doymaq bilməyən nəfsləri ilə, yoxsullar isə doyura bilmədikləri qarınları ilə narahatlıq içindədirlər.

Uşaqlıq illərimi xatırlayıram. Sovet dönəmində bütün dükanlara eyni model paltarlar gətirilirdi. Hər kəs eyni geyinirdi. Nadir halda insanlarda fərqli geyim görmək mümkün idi. O da kiminsə qohumu, tanışı xaricə gedə bilərdisə, o alıb gətirərdi. Heç kim mən fərqli geyinməliyəm, marka geyinməliyəm, bu çanta bu ayaqqabıya uymur deyə özünə dərd etmirdi. Mən Sovet dövrünün bizim üçün çox gözəl olduğunu deyə bilmərəm. Amma geyim mövzusunda insanlar daha rahat və hüzurlu idilər. Hazırda kreditə paltar alıb, aylarla onun ödəməsini edənləri görəndə, həqiqətən, insan kədərlənir.

Təsəvvür edin, bir paltar alınır, geyinilir, bəlkə də köhnəldiyi üçün atılır. Amma paltarın krediti hələ də bitməyib, ödənilir. Belə halda insan güləcəyini ya da ağlayacağını bilmir. Görəsən, insanlar öz nəfslərinə sahib çıxa bilmirlərmi? İmkanın nəyə çatır onu geyin, özünü rahat hiss edəcəyin tərzdə geyin! Axı insan nə üçün özünü başqalarına bəyəndirməyə çalışmalıdır? Bir psixoloq yoldaşımızla bu mövzuda müzakirə apararkən bu, insanlarda mövcud olan özünə güvənmək probleminin olması ilə əlaqədar olduğunu söyləyirdi. Özünə inamı olmayan insanlar dəbdəbəli, cazibəli geyimlərlə özünü insanlara qəbul etdirməyə çalışırlar. Həqiqətən, çox məntiqlidir. Təbii ki, insan keyfiyyətli, səliqəli geyinməlidir, xarici görünüşünə diqqət etməlidir. Lakin hər bir mövzuda olduğu kimi, geyim-keçimdə də insanlar həddi aşıb israfa yol verdiklərində xoşagəlməz mənzərələr yaranır.

Marka aludəçiliyi nədir?

İnsanların alış-verişdəki davranış və "ancaq marka" seçimi müasir insanın özünə və həyatına dəyər qazandırması kimi anlaşılır. Aldıqları malın öz həyatlarına təsir edə biləcəyini düşünərək "marka mallarına" üstünlük verirlər. İnsanların marka mallarına üstünlük verməsinə təsir edən bir sıra səbəblər ola bilər. Fərqli başlıqlarda nəzər yetirsək ailə, çevrə və medianın bu mövzuda çox təsirli olduğunu görə bilərik.

Ailələrin təsiri marka aludəçiliyinə yol açа bilər.

İnsanın həyatından, doğumundan əvvəl başlayan və həyatının sonuna qədər təsirini davam etdirən bir qurum olaraq ailə, fizioloji olduğu qədər maddi, mədəni və ictimai yönləri ilə də ruhi inkişafını, davranışlarını şəkilləndirib yönləndirir.

Ailələrin sərbəst və ya sərt qanunları, insanların kiçik yaşda marka məhsullarına üstünlük verməsinə şərait yaradır. Övladlarını güvənlə yetişdirən ailələr onların fikirlərinə, istəklərinə önəm verərkən, sərt qanunların olduğu ailələr isə övladlarına özlərini ifadə etmə imkanı verməzlər.

Bu şəkildə böyüyən uşaqlar gələcəkdə mədəni və sosial çatışmazlıqları təmin etmək üçün marka məhsullarına üstünlük verə bilərlər və bu şəkildə cəmiyyətdə yer tutmağa çalışarlar.

Uşaqlar yeniyetməlik dövründən etibarən özlərini cəmiyyətə və çevrəyə, qəbul etdirməyə çalışırlar. Bu dövrdə istifadə etdikləri bahalı marka geyim, telefon, kompyuter və başqa məhsullar onların cəmiyyətdə daha təsirli olduqları fikrinə yol açar və marka aludəçiliyinə səbəb olar.

Ətraf mühit reklamların insana psixoloji təsiri ola bilər.

İnsanlar öz istəklərini göz ardı edərək ətraf mühitdən əldə etdikləri məlumatlarla qərarlarını verə bilərlər. Markaların satışını artırmaq üçün etdikləri reklamlar, insanları yönləndirir. Onlar məhsullarının həqiqi keyfiyyətini təqdim etmək yerinə, sanki insana yeni bir həyat təqdim edərcəsinə tanıtmaları insanı bu malı almağa məcbur edə bilər. Digər faktor olan çevrə də insanların seçimlərində çox təsirlidir. İş yoldaşlarının, yaxın dostlarının istifadə etdiyi bir sıra marka nümunələri də psixoloji olaraq insan üzərində bir təzyiq yarada bilər.

Burada məqsəd həm o mühitdə təsirli ola bilmək, həm də inkişaf edən dünyaya ayaq uydurmağa çalışmaqdır.

Seçim azadlığı olan insanlar yetişdirin.

Ailə hələ uşaqlıq dövründən başlayaraq qarşısındakı insana dəyər verib, hörmət göstərməlidir. Uşaqların özünə olan güvənlərinin sağlam şəkildə formalaşması üçün çalışmalıdır. Bu şəkildə yetişən bir uşağın, özünü dəyərli hiss etməsi üçün bahalı markalara ehtiyacı olmaz. Cəmiyyətdə yer qazanmaq üçün markaya üstünlük vermək yerinə, seçim qabiliyyəti olan fərdlər yetişdirin.

Xədicə ŞAHİN



Moda Qasırğası

Gənc qızlarla həftədə bir dəfə söhbətdə görüşürük. Söhbətdə aktual mövzuları dini mövzularla əlaqələndirib gənclərə təqdim etməyə çalışıram. Bir söhbətimizdə yeməklərin insan bədəninə olan təsirini müzakirə edirdik. Gənclər yedikləri yeməklərin zərərlərini bildikləri halda, hazır qidalardan o qədər asılı vəziyyətə düşüblər ki, zarafatyana "nə olar qazlı içkilərin, fast foodun zərərlərindən bəhs etməyin" - deyə mənə yalvarırdılar. Nə qədər həqiqətləri eşitmək istəməsələr də, hamısının zərərlərindən bəhs etdim, yaxşı, bəs bu qidalardan imtina etmələrinə müvəffəq ola bildimmi? Təbii ki, xeyr. Müvəffəqiyyətli ola bilmək üçün uşaqlıqlarından etibarən hazırda mövcud olan reklam şirkətlərinin etdikləri kimi şüuraltı reklamlarla, zehinlərinə təsir etməli idim. Bu qədər zəhərlənən beyin bir-iki söhbətlə düzələ bilərmi?

Gənclərin çoxu ət və süd məhsullarını sevmədiklərini, ağızlarına belə vurmadıqlarını dedilər. Ət olaraq yalnız qamburgerin içərisindəki kotleti, süd məhsulları olaraq isə marketdə satılan meyvəli yoğurtları yeyə bildiklərini söylədilər. Evdə hazırlanan yeməkləri yeyə bilmir, lakin hazır olan qidaları iştahla yeyirdilər. Psixoloqlar bir problemi araşdırarkən uşaqlıq illərinə qədər enirlər. Mən də uşaqlıqda nələr yediklərini soruşdum, çoxu "balaca olanda hər gün beş-altı dənə meyvəli yoğurt, hazır qidalar yeyərdik"- dedi. Reklam beyinlərinə, yedikləri qidalar da ağız dadlarına təsir edib.

Rəqəmsal dövr vizuallığı ön plana çıxarır. Vizuallıq isə insanın fikrinə, ürəyinə təsir etməyi çox gözəl bacarır. Bunu bir nümunə ilə açıqlayaq: 1980-ci illərin sonlarında Türkiyədə açılan beynəlxalq pizza şirkətlərinin məhsulları satılmamışdı. Bir çox şirkət bağlanaraq ölkəni tərk etmişdi. Bəs şirkətlər bununla razılaşıb əl çəkdimi? Xeyr. Özəl bir telekanala çox ucuz qiymətə cizgi filmi satdılar. O cizgi filmini izləyərək böyüyən uşaqlar analarından ənənəvi olan lahmacun, pidə kimi qidalar istəmədilər. Yaxşı bəs onun yerinə nə istədilər? Pizza. Yəqin ki, həmin cizgi filmini hər kəs xatırlayır. Ninja Turtles, yəni Ninja Tısbağalar. Orada Ninja Turtles baş qəhrəmanlardır. Etdikləri qəhrəmanlıqları da pizza ilə qeyd edirdilər. Bunu izləyən uşaqların beyninə nə yeridi? Pizza qəhrəmanların yeməyidir. Lahmacun və pidə isə adi insanların. Ninja Tısbağalardan sonra bütün dünyada pizza satışları dəfələrlə artmağa başladı.

Media yalnız süfrələrimizi dəyişdirmədi. Geyim tərzimizdən, toylarımıza, şənliklərimizə, gəzdiyimiz yerlərə qədər bir tərz meydana çıxardı. Bu tərzi Türkiyənin



ən ucqar kəndində yaşayan birindən, dünyanın ən kasıb yerinə, ən inkişaf etmiş ölkələrdə yaşayan insanlara qədər hər kəs mənimsədi. Məqsəd tək insan tipi meydana gətirmək idi. Hədəflərində müvəffəqiyyət qazandılar.

Qırğızıstanda olan Bişkek qız Quran kursunun iki illik tələbələrini bir yerə yığmaq məqsədilə seminar təşkil etmişdik. Seminar olan zalda oturarkən gələnlərə baxırdım. Yaşıd olan on-on iki gənc qız qara, qalın çərçivəli eynəklərlə zala daxil oldular. Diqqətimizi cəlb etdi, "Hamısı eyni cür eynək taxıb. Nə qəribədir" - dedik. Müəllimləri onlardan bunun səbəbini soruşduqda "Gözlərimizdə problem yoxdur, artıq belə eynək taxmaq dəbdədir. Ona görə biz də eynək istifadə edirik" - demişdilər. Bundan əvvəlki nəslin gənclərinə həkim eynək istifadə etmək lazımdır deyəndə, ağlayardılar – "Mən indi necə eynək taxacam, hamı mənə dörd göz deyəcək". Əvvəllər lağ olunan hərəkətlər indi "moda" adıyla gənclərin arasında yayılır.

O zaman ki, elektron cihazlar evlərimizə girdi, qərbdən əsən moda axını da evlərimizi və könüllərimizi təsiri altına aldı.

"İnternet bizi axmaqmı edir?" adlı kitabında yazıçı "Media etmək istədiyini (faydalı və ya zərərli olmasından asılı olmayaraq) sinir sisteminə edir. İzlənilən proqramlar tamaşaçını ya ovsunlayır, ya da narahat edir. Tərkibinə baxıb tənqidi düşündürmür"- deyir. Moda da insanı düşünməyən bir hala salır. Bəzən söhbətə gələn gənclər o qədər fərqli şeylər geyirlər ki, gülməmək mümkün deyil. Qolları, ətəyi cırılaraq kəsilmiş köynəklər (köynək köhnəldiyi üçün anası qollarını kəsib "qızım gey bunu" desə, anasının üzünə necə baxardı, amma məşhur bir markanın etiketi qoyulanda modadır deyib geyinir), cırıq cins şalvarlar, əvvəllər yeri silmək üçün istifadə etdiyimiz köynəklər.... Moda cırıq, rəngi solmuş paltarı da geydirir. Həqiqətən, insanlar ələ salınır.

Bir də gənclər arasında "in, out" məkanlar, kafelər var. Gənc nəsillə ünsiyyətdə olmağın da belə faydaları olur. Aktual mövzuları izləyə bilirsən. Gənclərin getdiyi kafelər musiqili, tünd rənglərlə, qəribə dizayn edilmiş məkanlardır. Eyni zamanda Bişkekdə içki olmayan kafe də tapa bilməzsiniz. Gənclər bu məkanlara getdiklərini söyləyirlər. "Qızlar, içki içilən məkanda olmağınız Allahın lənətini üzərinizə çəkər"- dedim. Gənclər: "Axı Bişkekdə içkisiz məkan yoxdur"- dedilər. Mən də: "Bir dənə restoran var, ora həm etibarlı, həm də içkisizdir" - dedim. Üzlərini büzüb "Ora?" - deyib güldülər. Yeniyetmə olsam bu hərəkətlərinə görə kompleksə düşərdim. Mən də "Nə olub ki o restorana?" - dedim. "Ora yaşlıların yeridir, bizim nə işimiz var orda?" - dedilər. Moda günah işlənən məkanları "in", halal məhsullar satılan məkanları isə "out" edə bilirmiş.

Alış-veriş mərkəzlərində olan mağazaları gəzərkən diqqətimi bir şey çəkdi. Hər mağazada divardan asılı olan televizorlar həmişə yanıq olurdu və ard-arda moda şoular təqdim edilirdi. Səbəbini araştırdıqda gördüm ki, moda insanları daim alçaldır. "Şoudakı manikenlər kimi baxımlı və arıq deyilsən" mesajını verərək, izləyən qadınların özlərini əskik hiss etməsinə səbəb olur. "Əgər özünü xoşbəxt hiss etmək istəyirsənsə, alış-veriş et!" - deyə psixoloji təsir edir. Əli Uralın "Yanğın nərdivanı" adlı kitabında belə bir hissə var – "Mağazaya girəndə jaketimin köhnəldiyini görürəm. Şalvarımın rəngi birdən-birə solur, ayaqqabılarım da su keçirməyə başlayır". "Bu uydurmalara, bu israfa nə pul dözər, nə də can!"

Moda axını artıq axından daha çox pul qablarımızı, evlərimizi, könüllərimizi uçuran qasırğaya çevrilib. Küləyin yarpaqları sovurduğu kimi imanımızı silib-süpürüb. Moda axınına qarşı ayaqlarını dirəyən anaataların övladlar ilə əlaqələri də fırtınadan sonra ətrafın darmadağın olması kimi dağılıb. Yaxşı, bəs geriyə yol varmı? Bu yola çıxdıqdan sonra, geriyə dönüş mümkünsüz görünür. Elə isə bu yolu az zərərlə tamamlayanlara salam olsun...

Samirə MAHMUDOVA



İnsanı həlak edən ən ağır kəlmə

Həyat öz axarında davam edərkən insanlar hər gələn günlərinin keçən günlərindən daha çətin olduğunun fərqindədirlər. Qloballaşan dünyanın əksər ölkələrində gedərək çətinləşən həyat şərtləri, tez-tez baş verən iqtisadi böhranlar, milli-mənəvi dəyərlərin yerini səssizcə qərb ideologiyalarına təslim etməsi insanları yavaş-yavaş öz adət-ənənələrindən, kimliyindən uzaqlaşdırır. Dininə, mənəvi dəyərlərinə bağlı olan bir nəslin övladları, öz ata-babalarının yolunu unudub dünyada müvəqqəti məşhurluq əldə edən və əksər hallarda da heç bir dəyərlərə sahib olmayan insanları öz idealları olaraq görüb onların izindən getməyə can atırlar. Çoxlu pul qazanmaq, lüks və zəngin bir həyat yaşamaq, gözəl karyera əldə etmək, vəzifəyə gəlmək və s. kimi fitnələrin burulğanında üzənlər addım-addım Allahın kitabı və Rəsulunun yolunu tərk etməyə üz tuturlar. Nəfslərinə xoş gələn alimlərin sözlərini Qurani-Kərim ayələrindən və hədislərdən daha inandırıcı qəbul edib istəklərinə bəhanə gətirirlər. İnsanların onsuz da dinlərindən uzaq olduqlarını görən bir qrup alim isə münbit şəraiti görüb rahatlıqla fətva məqamlarını işə salaraq gün keçdikcə daha çox insanı öz yanlış və əsassız görüşləri ilə azdırmağa çalışırlar. Məşhur səhabə ibn Məsud (r.a.) bu məsələlər haqqında belə buyurur:

"Siz elə bir zamanda yaşayırsınız ki, bu zamanda alimlər çox, ağlına hər gələni söyləyən azdır; dilənçilər az, malını Allah yolunda xərcləyənlər isə çoxdur. Bu zamanda əməllər nəfsin istədiyini idarə edir. Sizdən sonra elə bir zaman gələcək ki, o zamanda alimlər az, danışanlar isə çox olacaq; dilənçilər çox, malını Allah yolunda

xərcləyənlər isə az olacaq. Həmin vaxt nəfsin istəkləri əməlləri idarə edəcək. Bilin ki, gözəl əxlaqlı olmaq bir çox əməllərdən xeyirli olacaq".

Həqiqi alim və elm sahibi olanların elmi nə qədər dərin olsa da, lazımsız danışdıqlarını kimsə görməzdi. Peyğəmbər məktəbinin varisləri sayılan bu irfan sahibi olan böyüklərimiz haqqında belə deyilmişdir: *"Onların danışdığı söz az, bərəkəti isə çox olardı. İndikilərin isə danışdığı söz çox, bərəkəti isə azdır"*.

Yenə İbn Məsud (r.a.) belə buyurur: "Fitnə sizi bürüdüyü zaman halınız necə olacaq? Elə bir fitnə ki, onun içində yaşlılar qocalacaq, uşaqlar böyüyəcək və insanlar o fitnəni sünnə hesab edəcəklər. O dəyişdirildiyi zaman insanlar: "Sünnə dəyişdirildi"- deyəcəklər. Tabiinlər soruşdular: Bu nə zaman baş verəcək? İbn Məsud: "Qarilərinizçoxaldığı və alimləriniz azaldığı, habelə əmirlərinizin çoxaldığı və etibarlı kimsələriniz azaldığı zaman. O zaman dünya işləri axirət əməllərinə qarışacaq, üstəlik elm Allah rızası üçün öyrənilməyəcəkdir (Sünnəni Darimi, 1/64).

Bir digər məşhur səhabə Əbu Hüreyrə (r.a.) Rəsulullahın (s.ə.s.) belə buyurduğunu rəvayət edir:

"Bir adamın: "İnsanlar həlak oldu!"-dediyini eşitsən, (bil ki) o, özü ən çox həlak olandır".

Bələləri insanların günah işlər gördüyünü tez-tez yada salmaqla camaat arasında fəsad törədər və onların ümidsizliyə qapılmasına səbəb olar. Bu hədisdən aydın olur ki, insanlara: "zaman dəyişib", "cəmiyyət korlanıb", "bunlara nəsihət etməyin xeyri yoxdur", "onlar düzələn deyil" və başqa bu kimi məyusedici sözlər demək olmaz. Elə bu səbəbdən də bir çox alimlər, xətib, vaiz və mənəvi dəyərləri aşılamaq istəyənlərin insanların günah işlər gördüklərini və bu səbəbdən həlak olacaqlarını tez-tez xatırlatmalarını qadağan edirlər. Belə ki, pis əməllər və şər işlər artdığından tez-tez danışmaq möminin qəlbini məyus edir, onu pessimizmə yönəldir və tədricən onu məhv edir. Müdrik bir xətib isə əksinə, insanları pis əməllərdən çəkindirməklə yanaşı, onlara ümid də verməli, mömin üçün hər bir işdə xeyir olduğunu, onun İslamda olduğu müddətcə xeyir içində olacağını və bu xeyirin qiyamətə qədər davam edəcəyini bildirməlidir. Məsələn, deyə bilər ki:

"Bu ümmətdən olan bir dəstə mömin Allahın əmri gələnə qədər (qiyamət qopanadək) Allahın dini üzərində sabit qalacaq və belələrinə müxalif olanlar onlara heç bir zərər verə bilməyəcəklər" (Səhih əl-Buxari, 71).

İsrail oğulları arasında işində səy göstərən iki nəfər var idi. Onlardan biri günah işlər görür, digəri isə çoxlu ibadət edirdi. Abid adam hər dəfə o birisinin günah işlədiyini görəndə ona "Əl çək, (bu günahdan)- deyirdi. Bir gün onun yenə günah bir iş tutduğunu görüb yenə ona "Əl çək, (bu günahdan)- dedi. O da cavabında: "Rəbbimlə məni yalnız burax. Olmaya mənim üstümə nəzarətçi qoyulmusan?"-dedi. Onda abid dedi: "Vallahi Allah səni bağışlamayacaq, yaxud Allah səni Cənnətə salmayacaq. "Nəhayət, (ölüm mələyi) onların canlarını aldıqdan sonra hər ikisi aləmlərin Rəbbi olan Allahın hüzuruna gətirilirlər və Allah abidə: "Sən mənim nə qərar verəcəyimi bilirdinmi? Olmaya Mənə mane olacağını düşünürdün?"- dedi. Günahkara isə: "Get, Mənim mərhəmətim sayəsində cənnətə daxil ol!"-dedi. Sonra abid barədə belə buyurdu: "Aparın bunu cəhənnəmə!"

Əbu Hüreyrə (r.a.) deyir ki: *"Canım əlində olan Allaha and olsun ki, o, dediyi bir kəlmə ilə həm dünyasını, həm də axirətini məhv elədi"* (Əbu Davud, 4901; Müsnəd, 2 / 23).

İmam Şafiinin "Əmin olmadığı bir şey haqqında bilmirəm demək imanın yarısıdır"- sözü insanın imanının kamilliyinə dəlalət edər.

Məryəm DƏMİR

Dünyanın məsum qitəsi



Hər kəs gördüyü, hiss etdiyi qədər yaşayıb anlayar. Hər göz həyata fərqli prizmadan baxar. Afrikaya baxmaq da belədir...

Afrikaya xaricdən baxmaq...

Bir də Afrikadan xaricə baxmaq...

Afrikada qadın olmaq;

Afrikada bir qadınsınızsa, saçınız çıxmır deməkdir.

Afrika qadını hər iş görə bilər. Həyatın yükünü daşıyar burada qadınlar. Məsələn, bir çox ölkədə rast gəlmədiyimiz yanacaq doldurma məntəqələrində işləyə bilər.

Həyatın əzabını, acısını, yükünü çiyinlərində daşımaz. O yükü, su bidonlarını başının üstündə daşıdığı kimi daşıyar, amma şikayət etməz. Üsyan etməz. Bir təbəssüm vardır hər zaman simasında. O gözəlliyinə ləkə salmaz.

Afrikada uşaq olmaq;

Afrikada uşaqsınızsa, verilən hər konfetə sevinərsiniz. Həyatdan gözlədiklərinizçox deyildir. Xoşbəxtliyi kiçik şeylərdə taparsınız.

Axşam qarnınızı doydurmaqdan başqa bir dərdiniz yoxdur.

Afrikada uşaq olmaq qardaşını çiynində daşımaq, bacının palçıqlı ayaqqabılarını sevə-sevə yumaqdır. Sarı su bidonlarında su daşımaqdır. Ən gözəli də özün daha uşaq ikən balaca bacı-qardaşının yükünü yüklənməkdir.

Afrikada şagird olmaq;

Afrikada şagird olmaq, uçuq, sökük də olsa o sinifdə təhsil almaq, hətta bir sinfə sahib olduğu üçün Rəbbinə şükür edərək dərsə getməkdir.

Həyətində su olmayan məktəbdə təhsil almaq, amma yenə də həyata ümid dolu gözlərlə baxmaqdır.

Afrikada insan olmaq;

Afrikada yaşamaq kilidli şkafdan meyvə götürməkdir. Can təhlükəsizliyi yoxkən yeməkləri qorumaqdır.

Afrikada olmaq, ananas və manqo kimi liflə zəngin meyvələri çox yemək deməkdir. Cənabı Haqqın Afrika xalqına bəxş etmiş olduğu bu meyvələr həm tox tutur, həm də metobolizmanı gücləndirir.

Hər gün günəşli günə gözlərini açarkən günəş işığının insan könlünə əks etdirdiyi dinclik və sükunəti doya-doya hiss etmək-dir.

Həyatdan heç bir şey gözləməz Afrika insanı... Günlük həyat... Günlük xoşbəxtlik... İşçiləri işdən çıxarsam niyə çıxartdın deyə soruşmazlar... Tələsməzlər... Qayğıları yoxdur...

Vəzifələrini axsatmasalar, tam təsəvvüfdür həyatları... TəvəkkəltüAlallah...

Məhsuldar torpaqlara sahib olan Afrika xalqı illərlə istismar olunduğu üçün ümidsizliklə iş gördüklərindən qabiliyyətləri çox zəifləmişdir. İstehsal etmək, əkmək, biçmək kimi məqsədləri yoxdur həyatda... Alver etdikləri zaman əsla tələsməzlər... Dəqiqələrlə gözləyə bilərsiniz..

Arfikada Müsəlmansanızsa;

Xristianlarla bir mühitdə yaşayırsınız deməkdir. Afrikada İslam dinini yaxşı bilən, yaxşı yaşayan dininə bağlı qalar. Biz müsəlmanlara bu məqamda çox iş düşür. Yanlarında, içlərində lazımı qədər ola bi-lirikmi? Bu vəzifəni yerinə yetirən qar-daşlarımıza könüldən minnətdarlığımızı bildiririk...

Cənabı Haqq ayədə;

"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır" (Hücurat, 49/13).

Ayəyi-kərimənin təfsirində Yezid b. Şəcərə (r.a.) rəvayət edir:

Rəsulullah (s.ə.s.) bir gün Mədinə ba-zarında birini görməyə getmişdi. Bir də baxdı ki, qara bir qul satışa çıxarılmışdır. Kim daha çox pul versə, ona satılacaq.

Qul da belə deyirdi:

-"Kim məni alacaqsa, ancaq bir şərtlə alsın".

Ona:

- Şərtin nədir?- deyə soruşuldu.

O da:

- "Məni alan adam, Rəsulullahın (s.ə.s.) arxasında beş vaxt namaz qılmaqdan məni məhrum etməyəcək", - dedi.

Nəhayət, bir adam onu bu şərtlə özünə qul aldı.

Rəsulullah (s.ə.s.) bu qulu hər fərz namazda arxasında görürdü. Amma bir gün onu görə bilmədi. Sahibinə:

- *"Kölən harada qaldı?*" - deyə soruşdu.

Sahibi:

- "Xəstədir, ey Allahın Rəsulu" - dedi.

Rəsulullah (s.ə.s.) səhabələrinə:

-*"Qalxın, onu ziyarət edək!"* - buyurdu.

Səhabələr də, Rəsulullah (s.ə.s.) ilə birlikdə qalxıb o köləni ziyarətə getdilər.

Bir neçə gündən sonra Rəsulullah (s.ə.s.) sahibinə:

-*"Kölənin vəziyyəti necədir?"*,- deyə soruşdu.

-"Ey Allahın Rəsulu, kölə hələ də xəstədir", - deyə sahibi cavab verdi.

Rəsulullah (s.ə.s.) kölənin yanına getdi. Kölə şiddətli qızdırma içində idi. Və bu halı üzrə ruhunu təslim etdi.

Səhabələr bunu görüb heyrətlənmişdilər.

Mühacirlər belə dedilər:

- "Biz, yurdlarımızı, mallarımızı, ailəmizi tərk etdik. Buna baxmayaraq bizdən heç kim nə həyatında, nə xəstələndikdə, nə də ölümündə bu kölənin gördüyü kimi bir xoş münasibət görməmişdir".

Ənsar isə bunları söylədi:

-"Biz, Rəsulullaha (s.ə.s.) qapılarımızı açdıq, Ona yardım etdik, mallarımıza ortaq etdik. Buna baxmayaraq zənci bir köləni bizdən üstün gördü".

Bunun üzərinə Allah-Təala, bu ayəyi- kəriməni endirdi.

"Qiyamət günü gəlib çatdığı zaman heç birimizin bir-birinə üstünlüyünün olmayacağı gün hər kəs sahib olduğu nemətlərin hesabını verəcək". Bu günkü cəmiyyətin alt təbəqə olaraq gördüyü zənci qardaşlarımızla eyni safda olacağıq. Rəngimiz, boyumuz, göz rəngimiz, nəhayət, fiziki xüsusiyyətlərimizin bir əhəmiy-yətinin qalmadığı zaman bu dünyadan nə götürdüyümüzün hesabını verəcəyik. Dünyəvi nemətlərdən məhrum olaraq gördüyümüz qardaşlarımız bəlkə də daha çox sevinəcək.

Cənabı-Haqq qiyamət günü qazananlardan etsin!..

Nəslihan GÜNƏŞ
gunesneslihan@gmail.com



Səhra Həcərsiz qaldı...

Qurani-Kərim bizə həyatı anlamağı, şərh etməyi və müsəlman olaraq həyatda fərqli bir baxış qazanma-ğımıza imkan verir. Bu baxış həyatımızı necə idarə edəcəyimizin fərqli yollarını da göstərir.

Quranla birlikdə olanlar, hidayət sahibinə yönələrək həyatlarına məna qazandırırlar. Bu yolda tarix boyunca fərqli mövqelərdə və vəziyyətlərdə bəzi insanları nümunə olaraq görürük. Oxuduqlarımız, əslində, bu insanların timsalında öz vəzifəmizi dərk etməyimizi təmin edir. Hər fərqli insanda bənzər bir xüsusiyyətimizi görür, onlara bənzəmək istəyirik. Hz. Nuhun (ə.s.) gəmisində, Hz. Lutun (ə.s.) ailəsində, Hz. Musanın (ə.s.) asi bir qövmlə münasibətində, Hz. Yaqubun (ə.s.) övladlarında, bunun kimi fərqli hadisələrdə və insanlarda bizə aid bir xüsusiyyət tapırıq. Bütün peyğəmbərlərə və onların yolundan gedənlərə salat və salam olsun.

Hələ İbrahimin (ə.s.) bir yalvarışı var ki, təsirlənməmək mümkün deyil.

“Ey Rəbbimiz! Mən əhli-əyalımdan bəzisini (İsmaili və anası Hacəri) Sənin Beytülhəramının (Kəbənin) yaxınlığında, əkin bitməz bir vadidə (dərədə) sakin etdim. Ey Rəbbimiz! Onlar (vaxtlı-vaxtında, lazımınca) namaz qılsınlar deyə belə etdim. Elə et ki, insanların bir qisminin qəlbləri onlara (Kəbənin ziyarətinə, əhli-əyalıma mərhəmət göstərməyə) meyl etsin. Onlara (bu yerin ağaclarının) meyvələrindən ruzi ver ki, (nemətinə) şükür edə bilsinlər!” (İbrahim 14/37) ayəsini oxuyarkən içimiz titrəyir. Bir kişi ailəsini səhraya qoyub gedir. Ruh halını düşünək. Qadın olaraq da o anı yaşayır və istər istəməz özümüzü sorğulayırıq.

Qucağımızda uşağımızla səhranın ortasındayıq. Həcərin “bizi burada qoyub hara gedirsən?”-sualını soruşmadan “bunu Allah əmr etdi?”-deyərək ərinə yönəlməsini diqqətlə izləyib nəticəsini maraqla gözləyərik. İbrahim “bəli, Allah əmr etdi!” deyincə, Həcərin boynunu büküb təslim olmasına heyrətlə baxırıq. Biz üsyan dolu qışqırıqlar gözləyərkən təəccüblü bir səssizlik səhranı bürüyür.

İnanmaq çox çətindir. Bir qadın təkbaşına səhrada, qucağında uşağıyla nə edəcək? Məhz bu, müasir dünyanın qadını olaraq bizi sarsıdan bir mənzərədir. Bu necə təslimiyyətdir? İçimizi titrədən də elə bu mənzərədir. Ucsuz-bucaqsız bir səhranın ortasında olmağı belə düşünə bilmirik.

Bir həftə bazara getmədikdə içimizdə yaranan aclıq qorxusu, əşyaya baxışımız, günügündən artan rahatlığımız, ehtiyaclarımızın, hər gün bir az daha çoxalması, geyimlərimizin çoxluğundan şkaflar böyüyərkən, yemək anlayışımız da genişlənərək ehtiyat üçün əlavə soyuducuların lazım olmasına gətirib çıxardı. Özümüzü Cənnətdəki kimi hiss edirik, istədiyimiz hər şey dərhal əlimizin altında hazırdır. Kiçik məhəllə marketlərinin yerini, gəzərkən yorulduğumuz nəhəng marketlər aldı.

Ah Həcər! İçimi titrədən qadın, boş və mənasız dəyərlərimi sarsıdan, qulluğunu Rəbbinə xas qılmaqla bizə şərəfli yolu göstərən, zadəgan olmayıb sıradan bir ailədən gələn, amma imanı ilə və xarakteriylə ucalan anam! Əsrimizin zavallı qadınlarının sənin kimi bir modelə nə qədər çox ehtiyacı var. Ey qadın, sənin kimi birisinin var ola biləcəyindən xəbərsiz olduqda evlərimizdən üsyanlar yük-

səldi. Rahatlığımızı qaçıran əsl günahkarın qənaətsizlik olduğunu kəşf edə bilmədik.

İmtahana razı anam, biz olduğumuz halın imtahan olduğunu görə bilmədik. Hər halımız şikayət üçün bir mövzudur. Başqa yerdə yaşasaydıq, yoldaşım belə olsaydı, uşaqlarım niyə belədir? Olmayanlara ilişən gözlərimiz, olanı görməyərək üsyana apardı bizi. İmtahanda olduğumuzu dərk edə bilmədik. Halbuki imtahanın tərzi, Rəbbim istəyirsə, qula təslimiyyət yaraşır. Biz səndən bunu öyrəndik.

Qucağında uşaqla ərinin arxasınca baxa-baxa qalır. Qadının fitrətindəki sığınacaq duyğusuyla bağlandığı əri, getmişdir. Səhra və təklik... Səhranın ortasında təkdir və nə isə etməlidir. Səfa və Mərvə olaraq bildiyimiz iki təpə arasında o yana, bu yana qaçır. Uşağını tək qoymamaq qorxusu ilə gedib gəlir.

Həcərin qaçması da əslində böyük bir ibrətdir. Bu günün analarının da bu qaçışdan, təhlükələrlə dolu olan zəmanəmizin səhrasında, yeriyərək belə deyil, qaçaraq, səy göstərməli olduqlarını bilməlidirlər. Səhranın istisi qədər televiziya proqramları, ya da pis dost çevrəsi təhlükə ərz etmirmi? Qızlarımız nə haldadır, İsmayıllarımıza hansı mərhəmətsizlər zərər verdi? Elə isə yalnız uşağı üçün qaçan Həcərcəsinə qaçmalı, övladlarımızı xilas etmək üçün çalışmalıyıq.

Yorğun, əldən düşmüş bir şəkildə uşağının yanına qayıdanda suyun fışqırdığını görür. Səylərinin qarşılığını Rəbbi nə gözəl verir. Çölün ortasında heç gözləmədikləri bir anda və yerdə Zəmzəmi verən Allah, üsyan, içki, qumar, narkotik kimi müvəqqəti həvəslər səhrasından biz qaçarsaq, ummadığımız xeyir bulaqları fışqırdacaqdır, hətta kim bilir "zəmzəm" (dayan, dayan) deyəcəyik.

Maraqlıdır uşağının baxımı yalnız bu qadına qalmışdır. Nə qədər sonra olduğu bilinməz, Tövhid təmsilçisi İbrahim (ə.s.) gəlib oğlundan qurban olmasını istədikdə, anasının oğlu İsmayıl da eyni təslimiyyəti göstərir. Həyat yoldaşım uşaqlarla maraqlanmır, bu mövzuda mənə dəstək deyil deyənlər üçün də düşündürücü bir haldır. Səhranın ortasında xarakteri möhkəm bu uşağı yalnız bir qadın yetişdirdi.

Atasının varlığı, yoxluğu ya da maraqlanmadığına məhəl qoymayaraq əlindən gələni edən bir ana. Depressiyaya düşmədən, psixiyatrların qapılarında yatmadan, sakitləşdiricilərlə sakitləşmədən, ərinə bəddualar etmədən, Rəbbinə üsyan etmədən, imanının gücü ilə ayaqda dayanan bir qadın və o qayğıyla uşağına sahib çıxmağın mümkün olduğunun canlı bir dəlilidir.

Amma biz olduğumuz yerdən, səhramızdan həmişə şikayətçiyik. Bizə görə günahkarlar çoxdur və bəhanələrimiz sərhədsizdir. Məktəbi, yoldaşı, atası... Bəli, bunları inkar edə bilmərik, amma enerjimizi Həcər kimi qaçmağa xərcləyək. Övladlarımızı iman mərhəməti ilə qucaqlayıb sahib çıxaq.

İnsanların ürəklərinin meyli üçün dua edilmişdi. Baxırıq ki, kimsəsiz səhra, daha sonra Məkkə olur və insanlarla canlılıq qazanır. Yalnız hiss etdiyiniz anlarda belə haqq yolundasınızsa, narahat olmayın bəzilərinin ürəyi sizə meyl edər və təklik ortadan qalxar. Həcər anam bu qucağındakı uşağın nəvələrindən son peyğəmbərin gələcəyini və oturduğu quru səhranın müqəddəs dəvətin beşiyi olacağını, İsmayılın (ə.s.) səsinin yerinə əsrlərcə "ləbbeyk" səslərinin eşidiləcəyini belə bilməzdi, əlbət. Bilməzdi Həcər anam o hallarıyla əsrlərin qadınlarına və kişilərinə nümunə olacağını.

Bəs biz hansı imtahanımızın hansı nəticələr doğuracağını bilə bilərikmi? Elə isə imtahanlarımıza təslimiyyətlə sarılmalıyıq. Qaçmaq, Həcər anamız kimi qaçmalıyıq...

Ey anam! Sənin səhran, müasir əsrin qadınlarına ən böyük məktəbdir!

Hz. Muhammməd Mustafa (s.ə.s.)

Peyğəmbərimiz (s.ə.s.) miladi 571-ci ildə Məkkədə dünyaya gəlib. Mövlud-Şərif yazarı mərhum Süleyman Çələbi:

“Doğdu ol saatda ol Sultani-din,
Nura qərq oldu səmavatü-zəmin”,

bəndi ilə Hz. Peyğəmbərin dünyaya nur və hüzur qaynağı olduğunu ifadə etmişdir. 40 yaşında ikən Ona Cənabı-Haqq tərəfindən Peyğəmbərlik vəzifəsi verildi. Bundan sonra Məkkə və ətrafındakı bütpərəst insanları İslama və bir tək Allaha inanmağa çağırdı. Bəzi insanlar Onun dəvətini qəbul etdi. Bir çoxları isə rədd etdi. Məkkədəki təzyiqlərə görə 622-ci ildə Mədinəyə köç edən Peyğəmbərimiz (s.ə.s.) orada İslamiyyəti daha rahat yaya bildi. Sonunda Məkkə də daxil olmaqla Hicaz bölgəsində İslamiyyət yayıldı. Peyğəmbərimiz (s.ə.s.) hicri 10, miladi 632-ci ildə Mədinədə vəfat etdi və Məscidi-Nəbəvi deyə bilinən məscidin yanındakı evinə dəfn edildi. Zamanla ehtiyac olduğu üçün məscid genişləndikdə Ravzayı-Mutahhara adı verilən qəbri-şərifi məscidin içində qaldı.

Peyğəmbərimiz (s.ə.s.) hər halı ilə ümmətinə örnək idi. Əxlaq və zühd barəsində bənzəri olmayan bir insan idi. Lazım gəldiyində ayaqqabısını təmir edər, paltarının söküyünü tikərdi. Heyvanından süd sağar, ev işlərində xanımlarına kömək edərdi. Xəstələri ziyarət edər, cənazələrdə iştirak edərdi. Möminlərin qəbirlərinə gedər, onlara salam verib dualar edərdi.

Peyğəmbərimizin evi çox sadə idi. Otağında demək olar ki, heç əşya yox idi. Bir həsir üzərində istirahət edirdi. Evləri də çox balaca idi. Ümmü Sələmə anamızın cariyəsinin oğlu olduğu üçün uşaqlığını Allah Rəsulunun xaneyi-səadətində keçirən Hz. Həsən Bəsri, uşaq ikən Peyğəmbərimizin otaqlarının tavanına əlini toxundura bildiyini ifadə etmişdir.

Tabiunun böyük imamlarından Said ibn Müsəyyəb də belə demişdir:

“Vallahi bu otaqların sökülməyib eynilə saxlanmasını nə qədər arzu edərdim! Beləcə yeni yetişən nəsil və buraları ziyarətə gələn insanlar, Allah Rəsulunun həyatda nə ilə kifayətləndiyini görərdilər, mal çoxaltmağa və



onunla öyünməyə rəğbət etməzdilər”.

Allah Rəsulunun (s.ə.s.) istifadə etdiyi əşyalar və geydiyi paltarlar da kifayət miqdarında idi. Çünki O, ehtiyacından artıq şeyi yanında saxlamaz, o dəqiqə hədiyyə edərdi.

Hz. Aişə (r.anhə) anamızın ifadəsinə görə Peyğəmbərimizin (s.ə.s.) vəfatı əsnasında üzərində biri yamaqlı, digəri də olduqca sərt iki parçadan tikilən bir paltar var idi (Müslim, Libas, 35).

Allah Rəsulu (s.ə.s.) ailə üzvlərinə də zühd həyatı yaşatmışdır. Səvban (r.a.) belə nəql edir: “Allah Rəsulu yolçuluğa çıxdığında ailəsindən ən son qızı Fatiməyə vəda edərdi. Qayıtdığında da yanına ilk baş çəkdiyi kimsə yenə Fatimə olardı. Rəsulullah (s.ə.s.) yenə bir yolçuluqdan qayıtmışdı. Fatimə də qapısının üzərinə bir pərdə asmış, bundan başqa övladları Həsən və Hüseynə gümüşdən iki bilərzik taxmışdı. Peyğəmbərimiz qızı Fatimənin evinə gəlmiş, ancaq evə girməmişdi. Fatimə, Rəsulullahın evə girməməsinin səbəbinin gördüyü şeylər olduğunu anladı. Dərhal (bəzəkli) pərdəni götürdü, uşaqlarının qolundakı gümüş bilərzikləri çıxardı. Həzrəti Həsən ilə Hüseyn ağlayaraq Rəsulullahın yanına getdilər. Allah Rəsulu onların bilərziklərini mənə verdi və:

“-Ey Səvban! Bu bilərzikləri filan ailəyə apar. Şübhəsiz bunlar mənim Əhli-Beytimdəndir. Cənabı-Haqqın onlara bəxş edəcəyi gözəllikləri dünya həyatında yeyib bitirmələrini istəmirəm. Ey Səvban! Fatiməyə sümükdən hazırlanmış bir boyunbağı, (nəvələrimə də) yenə sümükdən hazırlanmış iki bilərzik al!”– buyurdu (Əbu Davud, Tərəccül, 21).

Abdullah ibn Məsud (r.a.) belə deyir:

Rəsulullah (s.ə.s.) bir gün həsir üzərində yatmışdı. Peyğəmbərimiz oyandığında o həsir mübarək vücudunun yan tərəfinə iz salmışdı. Biz:

“-Ya Rəsulallah! Sizin üçün bir döşəkcə gətirsək olarmı?” – dedik. Rəsulullah:

“-Mənim dünya ilə nə əlaqəm var ki? Mən bu dünyada bir ağacın altında kölgələnən, sonra da miniyinə oturub oranı tərk edən bir yolçu kimiyəm”,- buyurdu (Tirmizi, Zühd, 44).

Peyğəmbərimiz namazlarını ağır-ağır, diqqətlə və tadili-ərkana (qayda-qanuna) riayət edərək qılardı. Namaz qılarkən ağlamağı səbəbi ilə sinəsindən qaynayan qazan səsi kimi səslər gəlirdi. Bir səhabəyə:

“-Namaza qalxdığın zaman dünyaya vəda edən bir kimsə kimi namaz qıl!”- tövsiyəsini etmişdi (İbni Macə, Zühd, 15).

Allah Rəsulu (s.ə.s.) Allah-Təalanı çox zikr edər və əshabına da zikr etmələrini tövsiyə edərdi. Bir gün zikr halqalarının fəzilətini bəyan edərək:


“-Cənnət bağçalarına baş çəkdiyinizdə oradan haqqı ilə istifadə edin” – buyurmuşdu.

Əshabı:

“-Cənnət bağçası ilə nəyi qəsd edirsiniz, ya Rəsulallah? – deyə soruşduqda Peyğəmbərimiz (s.ə.s.):

“-Zikr halqalarını”– qarşılığını verdi (Tirmizi, Dəavat, 82).

Səhabələrdən Şəddad ibn Evs (r.a.) belə



deyir:

Allah Rəsulunun (s.ə.s.) yanında olduğumuz zaman bizə: *"Aranızda əcnəbi varmı?* – deyə soruşdu. Burada "əcnəbi" sözü ilə Əhli-Kitabı qəsd edirdi. Biz də "Xeyr, yoxdur, ya Rəsulallah!"-dedik.

Bundan sonra Allah Rəsulu qapıların örtülməsini əmr edərək belə buyurdu:

"-Əllərinizi qaldırın və Lə iləhə illəllah deyin!"

Əllərimizi qaldırıb bir müddət belə zikr etdik. Allah Rəsulu da (s.ə.s.) əllərini qaldırıb belə dua etdi: *"-Əlhamdülillah! Allahım, Məni "bu cümlə" ilə göndərdin. Onu (söyləməyi və lazım olanı yerinə yetirməyi) Mənə əmr etdin. Buna qarşılıq Mənə Cənnəti vəd etdin. Sən vədindən əsla dönməzsən!"*

Daha sonra Allah Rəsulu əshabına *"Müjdələr olsun sizə! Mütləq ki, Allah-Təala sizi məğfirət etdi"* – buyurdu.

Peyğəmbərimiz yetimlərə və fağırlara qarşı çox mərhəmətli idi. Bu barədə belə buyurduğu rəvayət edilir:

"Bir kimsə müsəlmanların arasında olan bir yetimi yedirib içirmək üçün evinə apararsa, əfv edilməyəcək bir günah işləmədiyi təqdirdə, Allah-Təala onu mütləq cənnətə qoyar" (Tirmizi, Birr, 14).

"Bir kimsə sırf Allah rızası üçün bir yetimin başını oxşayarsa, əlinin toxunduğu hər saç telinə qarşılıq ona savab yazılar" (Əhməd, V, 250).

Peyğəmbərimizin (s.ə.s.) şəfqət və mərhəməti heyvanları da əhatəsinə alırdı. Abdullah ibn Məsud (r.a.) deyir:

Biz bir yolçuluqda Rəsulullahla (s.ə.s.) bərabər idik. Peyğəmbərimiz bir ehtiyacı üçün yanımızdan ayrıldı. O sırada bir quş gördük, iki dənə də balası var idi. Biz balalarını götürdük, quş isə aşağı, yuxarı qalxıb enərək çırpınmağa başladı. Allah Rəsulu gəldiyində bu halı gördü və belə buyurdu:

"-Kim bu yazığın balasını götürərək ona əziyyət etdi, tez balasını geri verin!" (Əbu Davud, Cihad 112, Ədəb 163-164)

Hz. Peyğəmbər (s.ə.s.) belə buyurmuşdur:

"Vaxtilə bir kişi yolda gedərkən çox susayır. Bir quyu tapır, içinə enir, su içir və çölə çıxır.

Bir də nə görsün, bir köpək, dili bir qarış çöldə susuzluqdan nəmli torpağı yalayır. O kişi öz-özünə:



"-Bu köpək də eynilə mənim kimi çox susayıb!"-deyib öz içində bir vicdan hesablaşması edir. O dəqiqə quyuya enir, ayaqqabısını su ilə doldurur və ağzına alaraq yuxarı qalxır. Köpək doyunca sudan içir. O kimsənin bu hərəkətindən Allah-Təala razı olur və onu bağışlayır".

Səhabələr:

"-Ey Allahın Rəsulu! Bizim üçün heyvanlardan ötrü də savab varmı?" – dedilər. Peyğəmbərimiz:

"-Hər canlı səbəbi ilə savab vardır" – buyurdu (Buxari, Şürb, 9; Müslim, Salam, 153).

Bir dəfə Rəsulullah (s.ə.s.) Məkkəyə getmək üçün ehramlı olaraq Mədinədən çıxmışdı. Üsayə yanına gəldi. Bura Rüveysə ilə Arc arasında bir yer idi. Burada kölgədə qıvrılıb yatan bir ceyran gördü. Allah Rəsulu əshabdan birinə hər kəs keçənə qədər ceyranın yanında gözləməsini və heç kimin heyvanı tədirgin və narahat etməməsini əmr etdi (Muvatta, Həcc, 79; Nəsai, Həcc, 78).

Peyğəmbərimizin (s.ə.s.) həyatını örnək götürən, Onun əxlaq, təqva, zikr və təfəkkür halını öz könül dünyalarında davam etdirməyə çalışan səhabə, tabiun və sonrakı dönəmlərdə yaşayan zahidlər, sufilər, Allah dostları Onu (s.ə.s.) özlərinə rəhbər etmişlər. Bu səbəblə təsəvvüf yolundakı mənəvi silsilələr Hz. Peyğəmbər (ə.s.) ilə başlayır.

Mürşidə Tüylüoğlu:
Övladlarınızı gözəl yetişdirin!

Uşaqlarda məhrəmiyyət təlimi çox vacibdir. Uşaqlar özlərini müdafiə edə bilmək üçün ilk olaraq özlərini tanımalı, olar-olmazları bilməli, valideynlərindən daim dəstək və diqqət görməlidir. Bu iş də, əlbəttə, valideynlərin üzərinə düşür. Valideynlər toplumun təhlükələrinə baxmayaraq sağlam və özünə güvənən insan yetişdirmək üçün çox diqqətli olmalıdırlar. Bu mövzuda ətraflı və dəyərli məlumatlar almaq üçün Türkiyədən dəyərli qonağımız neyro linqvistik proqramlama üzrə mütəxəssis Mürşidə xanımla səmimi söhbətimizi sizə təqdim edirik.

Gülüstan: *Salam aleykum Mürşidə xanım! İlk olaraq sizinlə görüşdüyümüz üçün çox məmnun olduğumuzu bilməyinizi istərdik. Sizinlə çox həssas və olduqca əhəmiyyətli olan "Uşaqlarda məhrəmiyyət təlimi" mövzusunda apardığımız söhbət hər kəs üçün çox maraqlı olacağını düşünürəm.*

M. Tüylüoğlu: Aleykum salam. Bizim üçün də sizinlə görüşüb, belə həssas mövzuda söhbət aparmaq çox xoşdur. İlk olaraq onu deyim ki, uşaqları yetişdirərkən onların əmanət olduğunun fərqində olmaq çox vacibdir. Xüsusi ilə uşaqlara zərər vermək olmaz. 6 yaşına qədər uşaqlarda şüuraltı tamamilə açıqdır. Uşaqlar valideynlərin üz mimikalarını, ifadələrini çox gözəl oxuyurlar. Nə düşündüyünü, hansı hisslər keçirdiyini valideyninin üzünə baxarkən uşaqlar çox gözəl anlayır. Uşaqlar dünyaya gələrkən ağ kağız kimi tərtəmiz olar. Və o ağ kağıza nə yazsanız o da onu öyrənər. Uşaqlar hələ ana bətnində ikən 4 aydan sonra ruh verildiyi zaman artıq uşaqda şüuraltı açılmağa başlayar. Məsələn, ana stressli və ya sıxıntılı olarsa, uşaqda da stress və sıxıntı olar. Ananın bütün hisslərini götürər və 6 yaşına kimi gördüyü hər şeyi qeydə alar.

Uşaqların körpəlikdən bədənlərinin onlara məxsus, xüsusi olduğunu dərk etdirmək üçün hələ körpə yaşlarından uşaqların paltarlarını başqalarının yanında dəyişmək olmaz. Çünki onun məhrəmiyyət hissi formalaşır. Bəzi analar hər kəsin içində rahatlıqla uşaqlarını soyundurub, paltarlarını dəyişirlər. Bu zaman nə baş verir, uşaq öz bədəninin məhrəm olduğunu, hər kəsdən gizlətməli olduğunu öyrənə bilmir. Həmçinin uşaqlar ayaqyolunda ikən qapının bağlı olmasına diqqət etmək lazımdır. Hər kəsin içində, əsasən də 3-4 yaşdan sonra uşaqların ayaqyolu ehtiyaclarını qarşılamaq olmaz. Hamamda ikən bəzən analar övladları ilə birlikdə yuyunurlar. Bu düzgün bir davranış deyil. Uşaq özünün və anasının məhrəmiyyətinin xüsusi olduğunu anlamalıdır.

İlk olaraq övladlarımıza onların bədənlərinin xüsusi və həssas olduğunu başa salmalıyıq. Bir insana çox yaxınlaşsaq onun məhrəm bölgəsinə girmiş olarıq. O insan da narahat olar. Hər bir insanın fiziki olaraq özünəməxsus bölgəsi var. Və bu həddi aşan hər kəs insanı narahat edər. Və ona görə də insanlar birbirinə həddən çox yaxınlaşmaz. Uşaqlar şəxsi bölgəsinin sərhədlərini necə biləcək? Əlbəttə ki, ona qarşı olan davranışlardan. Uşaqları vurmaq onların məhrəm bölgələrinin hüdudlarını pozar. Bir uşaq döyülərkən ona ilk olaraq bu hiss aşılanır. Bədənin sənə aid deyil. Bədəninə hər kəs istədiyini edə bilər. Uşaqlara bədənin sənə aiddir fikrini aşılamaq lazımdır.

Təsadüfi deyil ki, şiddət görən, döyülən uşaqlara qarşı təcavüz olarkən çox zaman səsini çıxarmır, hər zaman toxunulduğu üçün bədəninin ona məxsus olmadığı hissini yaşayır. Əksinə şiddət görməyən uşaqların isə qarşı çıxdığı, mübarizə apardığı görülür. Cinsi istirmar yaşayan uşaqlar özlərini əsasən güvəndə hiss etmirlər.

Cinsi təcavüzdə ən önəmli olan valideynlərin uşaqları qonşuya, qohuma verməklə uşaqlarını təhlükələrə atmalarıdır. İnsanın ağlına gəlmədiyi başına gələ bilir. Təcavüzlə qarşılaşan uşaqlar "anam məni nə üçün qonşuya qoyurdu?"-deyərlər.

Qonşuda yeniyetmə uşaqlar varsa, əsasən

də oğlan uşaqlarının olduğu yerə uşaqları qoymaq düzgün deyil. Çünki yeniyetmə oğlanlarda hormonların kəskin inkişafı uşaqların nəfsin idarə olunmasına mane olur. Və nəticədə xoşagəlməz davranışlar sərgiləyə bilirlər.

Gülüstan: *Təəssüf olsun ki, bəzi ailələrdə uşaqların döyülməsi halları çox normal qarşılanır və bu çox tez-tez baş verir. Belə mühitdə böyüyən uşaqları gələcəkdə hansı təhlükələr gözləyir?*

M. Tüylüoğlu: Bəzi atalar vardır ki, uşaqları aldadaraq yanına çağırar gəldiyi zaman gözləmədən bir şillə vurar. Yarı zarafat, yarı ciddi olan bu davranışlar uşaqların bir sıra psixoloji problemlər yaşamasına səbəb olar, hətta şizofreniyaya qədər aparar.

Uşaqlara vurmaq, şiddət göstərmək çox təhlükəlidir. Çünki ata-ana uşağını döyürsə, uşaq bu atam, anam olduğu üçün mənə zərər verə bilər ayırımı edə bilməz, uşaq hər kəs bədənimə zərər verə bilər hissiyyatındadır. Bəzi uşaqlara baxdığımız zaman uşaq çox sərbəst, rahat görünür, bəzi uşaqlar isə sıxılan, hər şeydən qorxan bir davranış sərgiləyir. Bunların səbəbi hamiləlikdən başlayaraq formalaşır.

Döyülən, şiddət görən uşaqlarda dəyərsizlik hissi yaranar. Mən dəyərli deyiləm düşüncəsində olar. Mən heç bir işə yaramıram, fərsizəm, döyülməyimin səbəbkarı mənəm, mən onsuz da pis insanam. İnsan üçün ən əsas xüsusiyyətlərdən biri özünü dəyərli hiss etməsidir. Bu insanın həyatda uğur qazanmasına səbəb olar. Dəyərsiz olmaq hissi insanı depressiyaya salar.

Gülüstan: *Şiddəti hər zaman valideynlər uşaqlara etməzlər. Bəzən bağçada, həyətdə, məktəbdə ya da öz dostları tərəfindən döyülən uşaqlara necə kömək etmək olar?*

M. Tüylüoğlu: Uşaqları dostları vurarsa, müəlliminə ya da valideyninə söyləməsini deyə bilərsiz. Amma heç vaxt sən də onu vur deməyin. Bundan sonra çox ciddi problemlər yaşana bilər. Məsələn, 4 yaşında bir uşağa səni kim vursa, sən də onu vur deyilərsə, o uşağın yoldaşını nə ilə və necə vuracağını bilmirik. Uşaqlar dərk etmədən qarşısındakı uşağa ciddi xəsarət yetirə bilər. Uşaqlar konkret düşünür, mücərrəd düşünə bilmirlər. Məsələn, mən, qardaşımın oğluna "ay səni yeyərəm" dediyim zaman, "bibi, sən insanları yediyin üçün köksən?"-deyə mənə cavab verdi. Yəni uşaqlar eşitdiyini olduğu kimi qəbul edir. Uşağınıza "Səni vuran uşaqdan uzaq ol, onunla çox oynama",-deyə bilərsiniz. Yəni bağçada, məktəbdə durmadan uşağınızı vuran bir yoldaşı varsa, onunla yaxınlıq etməməsini söyləyin. Ya da uşaqlar arasında mehribanlıq qurmaq üçün yollar da təklif edə bilərsiniz. Bəzi valideynlər uşaqları yoldaşları tərəfindən döyüldüyü zaman "sən gücsüz deyilsən" deyərək onu guya ruhlandırırlar. Bunu əslində şüuraltı "sən gücsüzsən" hissi kimi qəbul edər. Çünki şüuraltımız əsasən neqativ düşüncəni qəbul edir. Sən güclüsən deyilməlidir.

Gülüstan: *Bəs uşaqlar nə üçün bir-birini vurur?*



M. Tüylüoğlu: Uşaqlarda vurma hərəkəti görərək öyrənilən bir davranışdır. Ya evdə o cür davranışlar görər, ya da vuruşmalı oyunlar çox oynamasından, filmlər izləməsindən irəli gələr. Məsələn, qardaşım uşaqlıqda karate filmlərinə çox baxardı və həmin gün mənə ən az 3 təpik dəyərdi. Hər uşaq gördüyünü tətbiq etməyə çalışır. 80% valideyn uşaq yaşlarında gördüklərini övladlarına tətbiq edər. 20% isə bunun əksini edər. Məsələn, cinsi təcavüz edən insanların 80%-i uşaq ikən özlərinə təcavüz olunan insanlardır. İntiqam ya da başqa bir səbəbdən belə addım atarlar. Valideynlər uşaqlarında problem ya da aqressivlik aşkar etdikləri zaman buna qarşı tədbirlər görməlidirlər. Ehtiyac olarsa bir mütəxəssisə müraciət etsələr yaxşı olar. İstənilən halda uşaq yaşlarında görülən yanlış davranışları düzəltmək mümkündür. "Ağac yaş ikən əyilər" vaxtında edilən müdaxilə mütləq işə yarayar.

Bir uşağın davranışını dəyişdirmək üçün ananın sözündə durması vacibdir. Əgər icazə vermədiyiniz bir mövzu varsa sözünüzün üstündə sonuna qədər durmalısınız. Uşaqlarla bir dəyişiklik etmək istəyirsinizsə, ona bir ay əvvəldən məlumat verməlisiniz. Onu psixoloji hazırlamalısınız. Bir uşağı psixoloji yöndən sağlam böyütmək istəyirsinizsə, xeyr dediyiniz xeyr, bəli dediyiniz bəli olaraq qalmalıdır. Ən əsası da verdiyiniz sözü tutmalısınız. Yoxsa dediyiniz sözü dəyişsəniz uşaqlar bundan daim istifadə edərlər. Analar əzimli olmalıdır.



Gülüstan: *Uşaqlarda olan qorxu hissinin səbəbi nələrdir və bundan necə qurtulmaq olar?*

M. Tüylüoğlu: Ümumiyyətlə, uşaqların qorxaq olmasının əsas səbəbkarı ana-atalardır. Daim döyülən, təhqir olunan uşaqlar qorxaq olar. Özünü dəyərsiz hiss etdiyi üçün uşaqlarda qorxu hissi yaranar. İnsanın fitrətində yüksək səsdən və yüksəkdən düşmək qorxusu vardır. Qalan bütün qorxu hisslərini insan sonradan qazanar. Bəzi fobi sahiblərinin özlərinin bir qorxu yaşamamasına baxmayaraq, fobilərinin olması araşdırıldığı zaman həmin fobinin ana-da olduğu görülür. Körpə uşaqlar böcəklə ya da başqa bir şeylə heç qorxmadan oynayır. Halbuki biz ona əlimizi belə vura bilmərik. Bu necə olur? Nəyə görə müəyyən bir yaşına qədər qorxusu olmayan uşaq sonradan qorxmağa başlayır? Uşaqlar analarının üzündə gördüyü ifadə ilə qorxmağa başlayır. Əslində uşaq böcəkdən deyil, anasının həyacanından qorxur.

Uşaqlar arasında bir təcrübə keçiriblər. Onların yanına bir dovşan qoyublar. Uşaqlar heç qorxmadan bu dovşanla oynayıblar. Daha sonra isə dovşanı uşaqların yanına gətirdikləri zaman çox yüksək bir səs veriblər. Uşaqlar diksinərək qorxublar. Psixologiyada bir davranışı insanın adət etməsi üçün ən azı 21 gün etməli olduğu bildirilir. Yəni 21 gündən az etdiyiniz bir davranışa adət edə bilməzsiniz. Bir neçə gün dovşanla birlikdə yüksək səsi verdikdən sonra uşaq dovşanı görən kimi qışqırmağa başlayıb. O uşaq böyüyənə qədər izlənmiş və məlum olmuşdur ki, o uşaq böyüdüyü zaman da ağ və tüklü hər şeydən qorxurmuş. Şüuraltının xüsusiyyətinə əsasən ümumiləşdirmə edir.

Gülüstan: *Mürşidə xanım, dəyərli fikirlərinizi və vaxtınızı bizimlə paylaşdığınız üçün təşəkkür edirik!*



Könül iqlimindən incilər

Osman Nuri Topbaş

Peyğəmbərimiz (s.ə.s.) bir hədisi-şərifində:

"Mən ancaq bir müəllim olaraq göndərildim",- buyuraraq özünün bir mürəbbe olduğunu bəyan etmişdir. Bir ana-atanın övladına duyduğu şəfqət və mərhəmətdən daha çoxunu ümmətinə qarşı hiss edən Peyğəmbərimizin ən mühüm vəzifəsi "tərbiyə" olduğu kimi, yeni gələn nəslin məsuliyyətini çiyinlərində daşıyan ana-ataların ən əhəmiyyətli vəzifələri də, övladlarını nəbəvi əxlaq üzrə yetişdirmələri olmalıdır. Məlumdur ki, nəbəvi tərbiyədən keçmədən əvvəl səhabəyi-kiram, bir cahiliyyə insanı idi.

Uşaq tərbiyəsində ana və ata, müştərək bir məsuliyyətə malikdir. Necə ki, Rəsulullah (s.ə.s.):

"Hamınız çobansınız və hamınız himayəniz altında olanlardan məsulsunuz... Kişi, ailəsinin çobanıdır və sürüsündən məsuldur. Qadın, evinin çobanıdır və sürüsündən məsuldur",-buyurmuşdur (Buxari, Vəsaya, 9).

Belə demək mümkünsə, ana-atasının hal və rəftarlarını bir kaset kimi yaddaşına yazan bir övladın gözəl yetişməsi üçün, ana-atanın da övladına daim müsbət bir nümunə olması zəruridir. Bu hekayə çox maraqlıdır. Ana xərçəng balasına:

"-Niyə belə yana doğru gedirsən, balam! Düzgün yeri!"-deyincə, balası belə cavab vermişdir:

"-Yaxşı, ana! Əvvəl sən önümdə düzgün yeri, mən səni təqib edərəm!"

Ruhul-Bəyanda zikr edildiyinə görə, qiyamət günü ən şiddətli əzabı çəkəcək olan adam, ailəsi haqqında cahil davranan, yəni ailəsini mərifətullah təhsilindən məhrum edən kimsə olacaq.

Ayəyi-kərimədə belə buyurulur:

"Ey iman edənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun!" (Təhrim, 6)

Təfsirçilər bu ayədə əmr edilən qorumanın, gözəl əxlaqı təlim, səhvini düzəldərək xəbərdarlıq və irşad, pis yoldaşlardan qorumaq, zövq üçün yeməyə öyrəşdirməmək, zinəti və rahatlığı sevdirməmək kimi tərbiyə fəaliyyətləri olduğunu ifadə etmişlər.

Peyğəmbərimiz (s.ə.s.), bəzi hədislərində "tərbiyə" vəzifəsini, "cihad" kimi dində ən fəzilətli qəbul edilən bir əməldən belə üstün tutmuşdur. Necə ki, cihada çıxmaq üzrə Ona müraciət edən bir qisim əshabının, geridə qalan oğul-uşaqlarına və qoca ana-atalarına baxacaq kəsləri olmadığını anlayınca:

"-Onların yanına qayıdın, çünki cihadın yaxşısı onların yanındadır",- buyuraraq geri qaytarmışdır. (Baxın: Buxari, Cihad 138, Azan 17, Ədəb 3; Müslim, Birr, 5; Əbu Davud, Cihad, 31; Tirmizi, Cihad, 2)

Tərbiyənin maddi və mənəvi baxımdan əskik verilməsinin nəticəsini Əbu Zəkəriyyə əl-Anbər bir təşbehlə belə ifadə edir:

"Ədəb olmadan elm, odunsuz atəş, elmsiz ədəb də bədənsiz ruh kimidir".

Bir ana-atanın övladına qoya biləcəyi ən böyük miras, onun əbədi həyatını xoş edəcək mənəvi qiymətlərdir. Hədisi-şərifdə buyurulduğu kimi:

"Heç bir ata uşağına gözəl əxlaqdan daha xeyirli bir miras buraxmamışdır" (Tirmizi, Birr, 33/1952).

Dörd böyük xəlifədən sonra İslam tarixinin beşinci böyük xəlifəsi sayılan Ömər ibn Əbdüləzizdən vəziri:

“-Beytülmaldan aldığınız təsisatın kafi gəlmədiyi görülür. Daha çoxunu əmr buyursanız, bir qismini ehtiyat yığıb vəfatınızdan sonra övladlarınız və nəvələrinizin zəruri ehtiyacları üçün saxlayardıq!” - demişdi.

Ömər ibn Əbdüləziz (r.a.), bu təklifə bu möhtəşəm cavabı verdi:

“-Əgər geridə qalan övladlarım saleh kimsələrdən olsalar, onların çətinliyə düşmələrindən qorxmuram. Çünki Cənabı-Haqq:

“Həqiqətən, mənim himayədarım Kitabı nazil edən Allahdır. O, əməlisalehlərə himayəçilik edir” (Əl-Əraf, 196) buyurmuşdur. Cənabi-Haqq, onların vəlisi və qəyyumu olduqdan sonra, onların irəlidə qarşılaşacaqları vəziyyətlərdən heç narahat deyiləm.

Yox, saleh deyil, səfeh olacaqlarsa, belələri haqqında da yenə Qurani-Kərimdə;

“Allahın sizə dolanmaq üçün bəxş etdiyi malları səfehlərə verməyin” (ən-Nisa, 5) buyurulmuşdur. Bu ilahi nəhyə (qadağa) baxmayaraq, səfeh olacaq uşaqlarıma malmı saxlayacağam?!”

Ana-atalar, uşaq tərbiyəsində əvvəlcə:

-Övladlarının təmiz ürəklərinə Allah və Peyğəmbər məhəbbətini, Quran və Sünnə mədəniyyətini aşılamağa səy göstərməlidirlər. Mərifətin nəzakətə tabe olduğunu unutmayıb, könüllərində mənəvi gözəlliklərin inkişaf etməsi üçün, uşaqlarını hədiyyə və xoş sözlərlə xeyirə təşviq etməlidirlər.

Necə ki, Həzrəti İmam Malik deyir ki:

“Mən hər hədis əzbərlədiyimdə atam mənə bir hədiyyə verirdi. Elə bir zaman gəldi ki, atam hədiyyə verməsə belə hədis əzbərləmək məndə həzz halına gəldi”.

-Yenə uşaqların yüksək bir könül tərbiyəsindən keçə bilmələri üçün həm təhsil alacağı məktəbi, həm də bu təhsili verəcək müəllimi yaxşı seçməyə səy etməlidir. Necə ki, Rəsulullah (s.ə.s.), Abdullah ibn Ömərə (r.a.) belə buyurmuşdur:

“Ey İbni Ömər! Dininə yaxşı sarıl, dininə yaxşı sarıl! Çünki o sənin həm ətin, həm qanındır. Dinini kimdən öyrəndiyinə yaxşı diqqət et! Dini elmləri və hökmləri, istiqamət əhli alimlərdən al, sağa-sola meyl edənlərdən alma!” (Xətib əl-Bağdadi, əl-kifayi fi İlmir-Riva, əl-Mədinətül-Münəvvərə, əl-Məktəbətül-İlmiyyə, s. 121.)

-Ana-ata, övladlarının öyrəndiyi təhsilin, onlar üzərində necə bir təsir icra etdiyinin də daim təqibində olmalıdır. Çünki mənəvi dünyadan uzaq alınan təhsilin, məlumdur ki, adama bir faydası yoxdur.

Bu bir həqiqətdir ki, kitabxanaların tozlu rəflərində qalmış üstü örtülü fəlsəfə kitabları qəlb sıxıntısından başqa bir şey qazandırmamışdır. Cəmiyyət onlarla heç bir zaman salamatlığa qovuşmamışdır.



Buna müqabil, Quran və Sünnə mədəniyyəti ilə yoğrulub təsəvvüf hikmətləri ilə kamala çatmış könüllər, insanlığı daim həqiqi səadət və salamatlığa çıxarmışlar. Yəni məlumatın adama fayda verməsi üçün hal və davranışlara əks olunması, məlumatın mədəniyyətə çevrilməsi zəruridir. Ayədə:

"Allahdan Öz qulları arasında ancaq alimlər qorxarlar" (Fatir, 28) buyurulur.

-Övladlarımızın tərbiyəsində diqqət etməmiz lazım olan xüsuslardan bir digəri də, onlara daima nəzakət dolu bir üslub ilə xitab etməyə çalışmaq və gözəl sözlər söyləməkdir. Bu xüsusdakı səhvlərin doğuracağı kədərli sona işarə edən bu misal nə qədər ibrətlidir:

Bir adam Həzrəti Abdullah ibn Mübarəkin yanına gələrək ona uşağının üsyanından şikayət edir. Həzrət, o kimsəyə:

"-Uşağına heç bəddua etdinmi?" - deyə soruşur. O şəxs "Bəli" cavabını verincə, Abdullah ibn Mübarək:

"-Uşağın pozulmasına sən səbəb olmusan!" – deyə buyurur.

-Uşaqlarımızı avaraçılıqdan, lazımsız gəzmələrdən, evə gec gəlmələrdən və pis yoldaşlardan bütün gücümüzlə qorumalı, onları müəllimlərə, yaşlılara, qohum-əqrəbaya, qonşulara, zəiflərə, kimsəsizlərə və möhtaclara qarşı vəzifələrinin şüuru ilə yetişdirməliyik.

- Uşaqlarımızı xəstə ziyarətlərinə, infaqa yönləndirməli və tərtəmiz ruhlarına sədəqə vermənin mənəvi zövqünü daddırmalıyıq. Ara-sıra öz xərcliklərindən nə qədər infaq etdiklərini soruşmalı və onları bu sözlərlə daim xeyirə təşviq etməliyik:

"Övladım, bizə bu nemətləri ehsan edən Cənabı-Haqdır. Bu səbəbdən Rəbbimizə bir şükür borcumuz var. Bizə lütf edilən bu nemətləri ehtiyac sahibləri ilə paylaşmaqla şükür borcumuzu ifa etmiş olarıq. Bundan başqa sənin, möhtac qardaşlarınla imkanını paylaşmaq, bil ki, Rəbbimizin çox xoşuna gəlir. Ayəyi-kərimədə də «**... Sədəqələri Allah alır ...**» (ət-Tövbə, 104) buyurulur".

Övladlarımıza yeddi yaşından etibarən namaz qılma vərdişi də qazandırmalıyıq. Hətta bunun üçün zaman-zaman onları da özümüzlə məscidə aparmalıyıq.

Həftənin müəyyən günlərində mənəvi həyəcanlarını artırmaq üçün toplanmalı, siyəri-Nəbi və əcdadımızın tarixin qızıl səhifələrinə qeyd etdiyi mərhəmət, şücaət, fədakarlıq, haqq-hüquq kimi incəlikləri onların könül aləmlərinə nəqş etməliyik.

Bu məsələlərə diqqət edən ana-ataların övladları, dinin, vətənin və millətin sanki göz bəbəyidir. Tarix boyunca yaşayan vəlilər, cəngavərlər və fatehlər həmişə onların meyvəsidir.

Son olaraq bunu da xatırlatmaq istərdik ki, tariximizdəki şanlı zəfərlərimiz, hər nə qədər əsgərlərin zəfəri kimi görünsə də, əsas zəfər o əsgəri yetişdirən salehə anaların zəfəridir. Cəmiyyət bu saliha analarla abad olur. Buna müqabil nəfsani həyata düçar olmuş, övladının tərbiyəsinə biganə qalmış qadınlarla da cəmiyyət bərbad olar.

Nə xoşbəxt o analara ki, özünü övladlarına həsr etmiş, onları İslam şəxsiyyət və xarakterinə nümunə olacaq gözəl bir şəkildə yetişdirmişdir. Belə bir ana ömürlük bir təşəkkürə layiqdir.

Allah-Təala övladlarımızı dinimizə, vətənimizə və millətimizə xeyirli etsin! Onları zamanımızın fitnə və şər girdablarından mühafizə buyurub bizlər üçün sədəqəyi-cariyə halına gəlmələrini ehsan etsin. Amin!

Aygün MƏMMƏDZADƏ



Əs-Səmi

Əs-Səmi kainatdakı hər bir səsi eşidən, gizlində və aşkarda deyiləni, hətta pıçıltını belə duyan deməkdir. Əzəli olan Odur. Daima yaratdıqlarını eşidən Odur, görən Odur. Hökm edən Odur. Qullarına qarşı mülayim davranan Odur. Hər şeyə gücü çatan Odur. O, pıçıltını da, gizlində deyilənləri də eşidəndir.

"(Peyğəmbər Məkkə müşriklərinə) belə dedi: "Rəbbim göydə və yerdə (söylənən) hər sözü bilir. O, (hər şeyi) eşidəndir, biləndir!" (əl-Ənbiya, 4)

Uca Allah Qurani-Kərimdə quluna şah damarından daha yaxın olduğunu, Ona hər səslənişini Rəbbim deyərək yalvarışını duyduğunu və həmin duaya cavab verdiyini söyləyir. Çünki O, kainatdakı hər səsi eşidəndir.

"And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq! Xatırla ki, (insanın) sağında və solunda (onun bütün əməllərini) təsbit edən (qeydə alan) iki mələk oturmuşdur! Dediyi hər sözü (yazmaq üçün) onun yanında hazır durub gözləyən (iki mələk) vardır!" (Qaf, 17-18).

Uca Sənətkar yaratdığı insan oğluna "Səmi" isminin təcəllisi ilə qulaq və eşitmə duyğusu verib, özünü tanımasını istəmişdir.

Haqq-Təala eyni anda bütün səsləri eşidir. Dənizin dibindəki balıqlardan tutmuş səmadakı ulduzlara qədər, zərrəciklərdən günəşə, insanlardan mələklərə qədər, sonsuz varlıqların səsini eyni anda eşidir. Heç bir səs digərinə mane olmur. Hətta yalnız səsləri deyil, ürəklərdən keçənləri belə eşidir. Əlbəttə, Onun bu duyuşunu ağlımızın idrak etməsi mümkün deyil.

"(Ya Rəsulum!) Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən (onlara) yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm. Gərək onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər. Bununla da, olabilsinki, doğru yola yetişsinlər" (əl-Bəqərə, 186).

Səmi olan Rəbbimiz insanı ancaq gözəli, doğrunu, haqqı duyub dinləmək və yaşamaqla xoşbəxt olacaq şəkildə yaratmışdır.

Ey Səmi olan Rəbbim!

Məni Sənə dəvət edən o möhtəşəm Rəhbərin Muhammməd Mustafanın (s.ə.s.) səsini əsrlər əvvəlindən könül qulağı ilə eşidərək, Həbibinin dəvətinə qulaq asanlardan eylə!

Nəzrin HÜSEYNOVA



Ən Sevilənin Sevgilisi
HZ. AİŞƏ (r.anhə)

Peyğəmbərimiz (s.ə.s.) həyat yoldaşları arasında Xədicə anamızdan sonra ən çox Aişə anamızı sevərdi. O həm maddi, həm də mənəvi xüsusiyyətləri ilə digər xanımlardan fərqlənirdi. Hədis elmi ilə məşğul olan Zəhəbi, Aişə anamızın bu xüsusiyyətlərini belə nəql edir:

"O, gözəl və ağbəniz bir xanım idi. Buna görə ona Hümeyra deyilirdi. Həzrət Peyğəmbərin (s.ə.s.) zövcələri arasında bakirə olan tək o idi. Heç bir qadını ondan daha çox sevməmişdi. Qadınlar içində ondan daha çox biliklisini görmədim. O, Allah Rəsulunun (s.ə.s.) həm dünya, həm də axirətdəki zövcəsidir. Bundan daha böyük bir iftixar ola bilərmi?

Toydan sonra bu yeni gəlin Peyğəmbərimizin (s.ə.s.) evinə köçdü. Evi kərpic və xurma ağacının budaqları istifadə olunmaqla məscidin ətrafına tikilmiş otaqlardan biri idi. Otağın döşəməsinə bir həsir salınmışdı. Onun üstündə də xurma lifi ilə dolu dəri bir çarpayı var idi. Qapı olaraq tüldən düzəldilmiş bir pərdə asılmışdı. Belə bir sadə evdə Aişə anamız evlilik həyatına başladı.

Evliliyinin ilk illərində İslamın gələcəyi ilə bağlı dəqiq bir məsələ yox idi. Peyğəmbərimiz (s.ə.s.) belə ümmətinin gələcəyindən narahat idi. Bu yeni dini xanımlar arasında izah edən, onların çatışmazlıqlarını və səhvlərini düzəldən ağıllı, həvəsli və səy göstərən bir xanıma ehtiyac var idi. Aişə anamız bu xüsusiyyətlərə artıqlaması ilə sahib idi. O, doqquz il müddətində Həzrət Peyğəmbərin (s.ə.s.) ən yaxını oldu. Peyğəmbərimizdən (s.ə.s.) öyrəndikləri ilə qısa bir vaxt ərzində böyük hədis və fiqh alimi olaraq yetişdi. Xüsusilə xanımlar öz-

ləri ilə bağlı öyrənmək istədikləri məsələləri Aişə anamızdan soruşardılar. Bundan əlavə, çox gözəl ədəbə zövq və mədəniyyətə sahib idi.

Mən qısqanmayım bəs nə edim?!

Aişə anamız gənc qızlıqdan yetkinliyə keçid dövrünü Peyğəmbərimizin (s.ə.s.) yanında tamamlamışdır. O, daha əvvəl də bəhs etdiyimiz kimi bu evə gəldikdə qonşu qızlarla və oyuncaqlarla oynayırdı. Allah Rəsulu (s.ə.s.) da onun belə hallarını sevgi və anlayışla qarşılayırdı. Rəsulullah (s.ə.s.) bəzən onu məscidə Həbəşlilərin milli oyunlarını izləməyə aparar, bəzən da onunla şəxsən özü qaçış yarışları edərdi.

Həyat yoldaşları arasında ən çox qısqanclıq duyğusu yaşayan Aişə anamız idi. Onun qısqanclığı bəzən ayələrin enməsinə belə səbəb olmuşdur. Məsələn, bal şərbəti ilə bağlı olan ayə Aişə anamızın bir qısqanclıq hadisəsinin nəticəsi olaraq nazil olmuşdur.

Peyğəmbərimizi (s.ə.s.) ən çox qısqanan və Onun sevgisini qazanmaq üçün ən çox səy göstərən zövcəsi, şübhəsiz ki, Aişə anamız idi. Bunda Allah Rəsulunun (s.ə.s.) bakirə olaraq evləndiyi tək qadının Aişə anamız olmasının böyük rolu var idi. Çünki Rəsulullahın (s.ə.s.) Aişə anamızdan başqa bütün xanımları əvvəllər evlənmiş və bəzilərinin əvvəkli yoldaşlarından uşaqları olmuşdu. Halbuki Aişə anamızın qəlbini dolduran ilk və tək eşq Həzrət Peyğəmbər (s.ə.s.) idi və ailə xoşbəxtliyini ən gözəl formada ilk və son dəfə Onda (s.ə.s.) dadmışdı.

Peyğəmbərimizlə (s.ə.s.) evləndikdə digər xanımlardan fərqli olaraq bakirə olması Aişə anamızın tez-tez fərqli yollarla dilə gətirdiyi bir məsələ idi. Bir dəfə Həzrət Peyğəmbərdən (s.ə.s.) belə soruşmuşdu:

-Ey Allahın Rəsulu! Zəhmət olmasa mənə deyin, bir dərəyə ensəniz və orda iki cür ağac olsa, bunlardan birinin üzərindəki məhsul yeyilmiş, digəri isə əl dəyilməmiş olsa dəvənizi hansında otarardınız?

Allah Rəsulu (s.ə.s.):

-Başqası tərəfindən otarılmamış ağacda,- buyurdu.

Bunu eşidən Aişə anamız:

-Bax elə mən o ağacam! – dedi.

Digər tərəfdən Aişə anamız yaşca hamısından balaca idi və Peyğəmbərimizin (s.ə.s.) ən çox sevdiyi dostu Əbu Bəkirin qızı idi.

Aişə anamızın bu səmimi qısqanclıq duyğularını öz dilindən dinləyək:

"Bir gecə Rəsullullah yanımdan çıxıb getmişdi. (Mənim növbəmdə) Xanımlarının birinin yanına gedər deyə içimə qısqanclıq düşdü. Geri gələndə bunu başa düşdü və:

-Yoxsa qısqandınmı? – dedi. Mən də:

-Mənim kimi biri sənin kimi birini qısqanmaz bəs neyləyər?" – dedim.

Başqa bir gecə Peyğəmbərimizi (s.ə.s.) yenə yanında görə bilməmişdi. Qaranlıqda otağın içində əlləri ilə hər yanı yoxlamağa başladı. O anda səcdə halında olan Allah Rəsulunun (s.ə.s.) ayaqlarına toxunduqda rahatlaşdı.

Başqa bir dəfə də gecə yenə Rəsulullahı (s.ə.s.) yataqda tapa bilmədi. Onu tək qoyub digər xanımlarının yanına getdiyini düşündü. Bu əsnada Həzrət Peyğəmbər (s.ə.s.) rüku və səcdədə dua edirdi. Bu dəfə də öz-özünə deyindi:

-Anam, atam sənə fəda olsun, ey Rəsulallah! Sən nə edirsən, amma mən nə düşünürəm!

Aygün HACIYEVA



Sara Xatun Məscidi / Elazığ

Cəsarətli və müdrik qadın Sara Xatun

Adı Azərbaycan dövlətçilik tarixinə ilk xanım diplomat kimi daxil olan Sara Xatun tarixdə mühüm rolu olan bir qadındır. Osmanlı mənbələrinin yazdığına görə, onun əsl adı Gövhərşah xatundur. Ağqoyunlu hökmdarı Uzun Həsənin anası, demək olar ki, bütün Şərqdə dövrünün yeganə istedadlı diplomat qadını kimi tanınan Sara Xatun böyük ağıl və mətanət, müdriklik və cəsarət sahibi idi.

Sara Xatun Ağqoyunlu dövlətinin möhkəmləndirilməsində, onun xarici siyasətinin müəyyənləşdirilməsində və həyata keçirilməsində mühüm rol oynayıb. O, Uzun Həsənin ən məsul diplomatik tapşırıqlarını böyük səylə və müvəffəqiyyətlə həyata keçirirdi. Elə buna görə də, həmin dövrdə kiçik Ağqoyunlu dövləti, Osmanlı və Qaraqoyunlu kimi iki qüvvətli rəqib arasında müstəqilliyini saxlaya bilmişdi. Olduqca ağıllı, tədbirli qadın olan Sara Xatun dövlətin idarəçilik işlərində oğluna yaxından kömək edirdi.

Sara xatun Bayandur eli içində doğulmuşdu. Ağqoyunlular dövlətinin siyasətinin sahmana salınmasında görkəmli diplomat və dövlət xadimi Sara xatunun böyük rolu vardı. Demək olar ki, bütün Şərqdə yeganə istedadlı diplomat qadın kimi məşhur olan Sara Xatun, hətta Avropa ölkələrində də tanınırdı. Azərbaycana göndərilən Avropa, xüsusilə də, Venesiya elçilərinə verilən məxfi məlumatlarda mütləq Sara Xatunla görüşmək və öz məqsədləri üçün onun saraydakı nüfuzundan istifadə etmək tapşırılırdı.

O, Avropada da yaxşı tanınırdı…

Venesiya senatı onun Ağqoyunlu sarayındakı nüfuzunu nəzərə alaraq, demək olar ki, Azərbaycana göndərilən bütün diplomatlarına ciddi tapşırırdı ki, Sara Xatuna ehtiram göstərsinlər, müxtəlif hədiyyələr versinlər, məqsədlərinə nail olmaq üçün onun nüfuzundan istifadə etsinlər. Venesiyadan Azərbaycana göndərilən, demək olar ki, bütün diplomatik sənədlərdə Sara Xatunun adı çəkilir, ondan bəhs olunur. Bir diplomat kimi Sara Xatunun fəaliyyətində, onun sultan II Mehmetlə bağladığı 1461-ci il sülhünün böyük əhəmiyyəti var. Bu sülh hələlik əlimizdə olan məlumata görə, Sara Xatunun xarici ölkə hökmdarları ilə bağladığı ilk müqavilələrdən biridir. Uzun Həsən Sara Xatunu Sultan II Mehmetin hərbi düşərgəsinə göndərərkən, onun qarşısına iki çətin vəzifə qoymuşdu. Əvvəla o, Osmanlı sultanını Ağqoyunlular üzərinə hücum etmək fikrindən daşındırmalı idi. Çünki II Mehmetin bu hücumu Ağqoyunlu dövlətinin varlığına son qoya bilərdi. Bu məqsə-

də nail olduqdan sonra Sara Xatun sultanı mümkün qədər Trabzonu fəth etmək fikrindən də döndərməli idi. Bütün Yaxın və Orta Şərqdə böyük nüfuzu olan Sara Xatun Osmanlı sultanının hərbi düşərgəsində yaxşı qarşılandı. Mənbələrin məlumatına görə, diplomatik danışıqlar zamanı Sara Xatun və II Mehmet bir-birinə "ana", "oğul" deyə müraciət edirmişlər. Sara Xatun bu danışıqlar zamanı özünün bütün diplomatik ustalığından istifadə edərək Uzun Həsənin birinci tapşırığını yerinə yetirə bildi – II Mehmeti Ağqoyunlu dövlətinə qarşı müharibə etmək fikrindən daşındırdı. İki ölkə arasında sülh bağlandı. Bu sülhün o zaman Ağqoyunlu dövləti üçün böyük əhəmiyyəti olmuşdu. Məhz Sara Xatunun bağladığı bu müqavilə nəticəsində o zaman Türkiyə ilə toqquşmağa qadir olmayan kiçik Ağqoyunlu dövləti öz müstəqilliyini saxlaya bilmişdi.

Lakin Sara Xatun ona tapşırılmış ikinci vəzifəni yerinə yetirə bilmədi. Ağqoyunlu dövlətini təcrid etdikdən sonra II Mehmet Trabzon üzərinə yeridi. Lakin o, Uzun Həsənin arxadan hücum etməyəcəyinə əmin deyildi. Odur ki, Sara Xatun başda olmaqla, Ağqoyunlu elçilərini də sultan özü ilə götürdü. Sara Xatun yol boyu sultanı Trabzonu fəth etmək fikrindən çəkindirməyə çalışdı. Lakin onun səyləri heç bir nəticə vermədi. Dənizdən Osmanlı donanması tərəfindən mühasirəyə alınan Trabzon 30 günlük mühasirədən sonra – 1461-ci il oktyabrın 26-da Türklər tərəfindən zəbt edildi. Qara dənizdə Genuya ilə rəqabət aparan mühüm ticarət mərkəzi süqut etdi. Artıq Trabzonun əldən getdiyini görən Sara Xatun öz gəlininin – Dəspinə Xatunun Trabzonun taxtına varislik hüququnu irəli sürdü. Trabzon xəzinəsini sultanla bölüşdürdükdən sonra Ağqoyunlu elçilərinin başında geri qayıtdı. Görünür, Ağqoyunlularla kəskinləşən münasibətləri yumşaltmaq üçün II Mehmet Sara Xatuna xoş rəftar göstərmiş, onu çoxlu hədiyyələrlə geri yola salmışdı.

Hərbi istedada malik diplomat…

Teymurlu hökmdarı Əbu Səidlə danışıqlar aparan Ağqoyunlu elçilərinə də Sara Xatun başçılıq etmişdir (1468). Sara Xatun diplomat və dövlət xadimi olmaqla bərabər, böyük hərbi sərkərdəlik bacarığına və hərbi intuisiyaya malik qadın olmuşdur. Onun əqli çevikliyi dar məqamlarda tez qərar çıxarmağa imkan verirdi. Sara Xatun qeyrətli qadın, diplomat və hərbi istedada qadir bir şəxsiyyət idi.

Ağqoyunlu dövrünün ən görkəmli tarixçisi Əbubəkr Tehrani yazır ki, Sara Xatun Qaraqoyunlu Cahanşahla danışıqlar aparmaq məqsədilə onun yanına gəlmiş, bu zaman Rüstəm Tərxanın düşərgəsində olmuşdur. Onun ordusu Sara Xatuna o qədər də əzəmətli görünmədiyindən, Cahangir Mirzə və Uzun Həsənə sifariş göndərir ki, "Əgər gəlsəniz, qələbə sizin olacaq. Bu işi təxirə salmaq olmaz".

Sara Xatunun orduya sadəcə bir nəzər salmaqla ağqoyunlular arasındakı qüvvələr nisbətinin Ağqoyunlu dövlətinin xeyrinə olduğunu düzgün qiymətləndirməsi onun hərbi intuisiya və səriştəsindən xəbər verir. Həqiqətən də, bundan sonra Uzun Həsənin kəşfiyyat dəstəsi Rüstəm Tərxanın ordularına hücum edərək onları darmadağın etmiş, Qaraqoyunluları bərk qorxuya salmışdı.

Kişilərə nisbətən qadınların həyatın bütün sahələrində hüquqsuz yaşadığı bir dövrdə, Azərbaycan tarixində belə mərd və cəsarətli, diplomat qadınlarımızın mövcudluğu təqdirəlayiq haldır. Sara Xatun uzaq tarixi keçmişimizdə yaşasa da, onun siyasi mədəniyyəti, diplomatik fəaliyyəti və şəxsi şücaəti gələcək nəsillər üçün gözəl bir örnəkdir…

Azadlıq.info saytından götürülmüşdür.

İlhamə HƏSƏNLİ

Sevgi və sədaqət məktəbi

Ömrümün 17-ci payızı idi...

Artıq sərbəst buraxmışdım göz yaşlarımı. Bu payızın yağışı göz yaşlarım idi. Ağaclardan həzin-həzin ayrılan hər yarpağa yoldaşlıq edəcəyinə söz vermişdi. O vaxta qədər ki, çılpaq təbiət şaxtanın əsirliyindən xilas olacaq və günəşə qarışacaqdı...

Ah, Hicran, öz-özünə danışmağı buraxıb artıq otağından çıxsan, deyirəm.

Otağımdan çıxıb mətbəxə irəlilədim. Anam ilə Roma həmişəki kimi yemək davası edirdilər. Anam Romaya yedirir, üzünü çevirən kimi Roma, çıxararaq gülün dibinə tökürdü. Mənim yazıq gülüm, qardaşımın əlindən nələr çəkirdi. Onları belə gördükdə qapıya söykənib fikrə dalmaqda özümə mane ola bilmədim. Əslində onlara nə qədər uzaq, bir o qədər də yaxın olduğum illər bir daha xatirələrimdə canlandı. Üç il bundan qabaq yaşadıqlarımın sadəcə yalandan ibarət olduğunu öyrənməyim yadıma düşdükcə iliyim titrəyirdi.

Mən doğulduğum gündən atam xəstəliyə tutulmuş və yataq xəstəsi olmuşdu. Atamın çəkdiyi ağrılar gəldi gözümün qarşısına, yenə boğazım düyünlənmişdi, dodaqlarım titrəmək istəyirdi. Ancaq dişlərimi bərk-bərk bir-birinə sıxdım, ağlamayacaqdım. Hər şey geridə qalmışdı. Amma kiçik qızcığazın xatirələri yaxamı buraxmırdı. Ovuc-ovuc dərmanlar, iynələr uşaqlığımın unudulmaz hissələri idi. Sanki ölümlə yaşamın savaşında axıdılan qanlara şahidlik edən divarların hər köşəsindən yüksələn yalvarışlar, ağrı, iniltilərlə dolu xəstəxanalar mənim parkıma çevrilmişdi. Sükut dolu əməliyyat otaqlarından çıxan həkimlərin bir kəlməsi ilə ətrafın bağırtılarla dolması məni ürküdürdü. O otaqlarda Əzrail olduğunu düşünüb, hər oradan keçdikdə anamın əlini bərk-bərk sıxardım. Mən belə böyümüşdüm. Evin hər küncündə mən görməyim deyə qısılaraq ağlayan anamın saxta təbəssümü, daim yaşamla ölüm arasında mübarizədə olan atamın saxta həyat eşqi ilə...



Kiçik bir qızcığaz olsam da yaşım böyük idi. Çünki ailəm mənə istəməsələr də, az yaşımda çox şey öyrətmişdi. Ən başlıcası dik durmağı. Atamın hər cansız bir bədəndən fərqsiz yatdığını gördükdə, hər gözümün qarşısında gündən-günə əridiyini gördükdə, hər ağrıdan qıvrıldığını gördükdə sanki canımdan can qopurdu, sanki nəfəsimi məndən söküb alırdılar. Mən nəfəssiz qalmışdım. Anam...

Anamın cılız bədənindən, yoluq saçlarından, qırmızı və şişmiş gözlərindən, titrəyən əllərindən, batmış səsindən halı bəlli idi. Anamı belə gördükcə sanki kürəyimə

balta saplayırdılar, ancaq yenə də dik durmağa son gücümlə çarpışırdım. Mənim bezmiş, bitkin halım onların sonu olardı. Bu həyatda yeganə xoşbəxtlikləri mən idim. Ailə demək də bu idi. Bir-birinə bağlılıq və bütün olmaq. Bir-birindən güc almaq və həyata bağlanmaq. İki əlli deyil, dörd, altı, səkkiz əlli yaşamdan yapışmaq. Sadəcə yaxşı anlarda deyil, ən ağır, ən mürəkkəb, ən acı vəziyyətlərdə də bağını qırmamaq. Çünki bu bağ çox zərif, incə, kövrəkdir. Bir-biriylə birləşdirmək nə qədər asandırsa, qorumaq bir o qədər çətindir. Mən ailəmdən bunları öyrənmişdim. Sədaqəti, məhəbbəti, sabaha inamı və həyata qarşı dik duruşu. Ailənin nə qədər müqəddəs olduğunu anamdan öyrənmişdim.Çünki o, ilk öncə Allaha, sonra isə atama olan sevgisi ilə hər yıxıldıqda qalxır, dizlərindən deyil, qəlbindən axan qanlara əhəmiyyət vermədən ömründən ömür calayırdı atamın həyatına. Anam Allahı sevirdi və Allahı sevənin onun bəndəsinə də məhəbbət duymalı olduğunu düşünürdü. Və Allaha olan sevgisi necə saf, təmizdisə, onun taleyinə yazılan qismətə də sevgisi bir o qədər müqəddəs idi. Bizim ailəmizin bağları bu hisslərlə qurulduğu üçün sarsılmaz idi.

Allah bəndələrinə çəkə bilməyəcəyi dərd verməz. Bu dərdlərlə bizləri sınayar, ona olan eşqimizi, qorxumuzu, səbrimizi, iradəmizi ölçər. Və biz bu sınaqdan alnı ağ çıxdıq. Tezliklə Allah bizim müqəddəs ailə bağlarımızı, bizim ona olan sevgimizin bizləri bir-birimizə bağladığını gördü və üzərimizə nurunu bəxş etdi. Başımızın üzərindən qara buludlar dağıldı və dünyamız işıqlandı.

Sanki bir möcüzə baş verdi və atam yaxşılaşmağa başladı. Yeriyə bilməyəcəkdi, amma artıq bizlərlə idi. O ağrılı gecələr, izdirablı gündüzlər geridə qalmışdı. Artıq gücümüzün tükəndiyi bir vaxtda mərhəmətli Allah bizə elə bir möcüzə bəxş etmişdi ki, bütün həyatımız dəyişmişdi. Anam, mənim gözəl, sədaqətli anam...

Sönmüş gözlərinə almazları qısqandıracaq parlaqlıq, yanaqlarına alma kimi əlvanlıq, dodaqlarına lalələr qonmuşdu. Sevincimiz bununla bitməmişdi. Qardaşımın dünyaya gəlişi ömrümüzə rəng qatmışdı.

-Məncə adı Məlikşah olsun.

-Yox ana, artıq bu adların dövranı çoxdan keçib, ən yaxşısı Tamerlan olsun.

-Xanımlar, bu gedişlə uşaq doğulacaq və adsız qalacaq. Ən yaxşısı mən deyən olsun, Bəylər.

-Eh, ata nolub sizə şah, bəy yox bir ağa qoyaq.

-Elə bir ad düşünməliyik ki, fərqli olsun, amma fərqliliyi gələcəkdə onu utandırmasın.

-Tapdım, tapdım.

Atamın bağırışıyla anamla diksindik. İkimiz də təəccüb içində atamın tapdığı adı eşitmək üçün səbirsizlənirdik.

-Roma. Ən sevdiyim şəhərdir. Həm əzəmətlidir, həm qədim, həm müasir. Məncə, o adını çox sevəcək.

Anamla bir-birimizə gülümsəyərək baxdıq. İkimizdə bu adı sevmişdik. Axır ki, qardaşım adsız doğulmayacaqdı.

Nəhayət, Roma doğuldu.

Ailəmizin yeni sakini bizlərə daha çox sevgi və məsuliyyət gətirdi. Onu sevgiylə və sevinclə böyütdük. Necə də gözəl ailə idik. Bütün pis anları arxada qoyub özümüzə yeni bir həyat qurmağı bacarmışdıq. Hər şey çox gözəl idi. Əgər mən pozmasa idim, gözəl olmaqda qalacaqdı. Mən sevmişdim, həm də öz xalamoğlunu. Necə baş verdiyini mən də anlamamışdım. Biz onunla sanki qardaş-bacı kimi böyümüşdük. Mənə nələr olduğunu anlamırdım, o mənə öz sevgisini etiraf edənə qədər. Bu qarmaqarışıq hisslərin nə olduğunu da anlamamışdım.

Yenə bir payız axşamı idi. Hər kəs toplanmış 15 yaşımı qeyd edirdik. Belə gözəl, əyləncəli gecənin sonunda anam qabları yuyur, mən isə qurulayarkən anamın qəribə baxışlarını hiss etdim.

-Anacan, nə soruşmaq istiyirsənsə soruş.

-Bu gecə xalan oğlu Xəzərlə aranızdakı münasibət fərqli gəldi mənə. Problem var?



Yalana nifrət edirdim. Anama hər şeyi danışacaqdım. Ancaq onun belə qarşılayacağına özümü hazırlamamışdım və çaşıb qaldım.

-Sən nə dediyinin fərqindəsən?! Mən səni belə nankor böyütmədim. Sən bu yaşda dərsinlə məşğul olmaq əvəzinə bu utanmazlığı necə etdin?! O sənin xalan oğludur!

Anamın təngnəfəs olmağı, əllərinin titrəməsi, bu qədər həyacanlanmağı məni tamam çaş-baş etmişdi. Nə deyəcəyimi, necə başlayacağımı bilmirdim. Yaxınlaşıb titrəyən əllərindən tutdum.

-Anam, mənim gözəl anam. Bu dünyada o qədər evli qohumlar var ki, burda ayıb heç nə yoxdur. Həm biz bu dəqiqə evlənmirik ki, səncə, mən təhsilimi başa vurmamış, öz ayaqlarımın üzərində durmamış, belə bir şey edərəm? Mən ki sənin Hicranınam. Sən məni dünyaya gəlməmiş hiss edib, tanımısan. Sən mənim nankor və düşüncəsiz olmadığımı bilirsən.

Qəflətən anamın əllərimi itiləməsi və bağırması ilə yerimdə donub qaldım. Heyrətlə onu dinləyirdim.

-Yox! Yox! Yox! Səni mən dünyaya gətirmədim! Uşağımız olmurdu. Bir körpə qığıltısına həsrət qalmışdıq. Ata-ana nəfəsinə həsrət qalan bir körpə götürərək həm onu, həm də özümüzü xilas etmək istədik. Bu hicrana son vermək istədik.

Bu sözləri hönkür-hönkür, göz yaşları əsnasında söyləmişdi anam. Mən isə onu anlamağa çalışırdım. Beynimin içində o qədər səs var idi ki, bu səssizlikdə.

Bu səfər anam mənə yaxınlaşıb, üzümü ovcunun içinə aldı və davam etdi.

-Səni mən dünyaya gətirmədim! Amma qızım, sən bizim hər şeyimiz olduğunu və bunun heç nəyi dəyişdirmədiyini bilirsən.

Mən onların övladı deyildim. Mən 15 il idi ki, böyük bir yalanın içindəydim. Bəs mən kim idim? Kimin qızı idim? Bunları düşünməklə beynimdən silib atmağım bir oldu. Özünə gəl Hicran! Ailən sənin hər şeyindir! Sən axır-əvvəl bu həqiqəti öyrənməliydin, amma bunun bir fərqi yoxdur. Əsas kimin sayəsində həyatda qaldığımızdır. Ailəm mənə hər şeyi öyrətdi. Çox ağır günlər yaşadıq, amma bu ağır günlərin sayəsində birbirimizin dəyərini, ailənin nə ifadə etdiyini öyrəndik. Ailə olmaq qan bağı ilə birləşmək deyildir! Ailə olmaq can bağı ilə birləşməkdir. Bizlər canımızla bağlı idik birbirimizə. Biz dördümüz sarsılmaz bir ordu idik. Hər zaman da belə qalacaqdıq. Həmin an özümə bir söz verdim. Bu həqiqəti həyatımdan, bir daha xatırlamamaq və xatırlatmamaq adına silirəm. Yeganə həqiqət var: o da ailəmdir.

Heç gözləmədiyimiz anda həyatımız altüst oldu. Atam bir günün içərisində illərlə qazandığı sağlamlığını və daha sonra həyatını itirdi. Atamın yoxluğunun həsrəti hər an burnumuzun ucunda göynəsə də, bir-birimizə dəstək olub həyatla mübarizə aparırıq. Yaşaran gözlərimi qırpışdırıb mətbəxə girdim.

-Roma, böyük kişi oldun yenə də anam sənə yemək yedirir, utanmaz.

Romanın səsimi eşitməsi ilə qucağıma atlamağı bir oldu. İki yanağımdan öpüb.

-Bacı, ad günün mübarək. Sənə anamla hədiyyəmiz var.

Qaça-qaça otağına gedib bir paket gətirdi. Həvəslə hədiyyəmi açdım. Çərçivənin içərisində gözəl bir rəsm idi. Yenə də dördümüz idik. Roma bizi çəkməyi çox sevirdi. Bundan gözəl hədiyyəm ola bilməzdi. Gözlərimə gələn yaşları böyük mübarizənin sonunda geri göndərə bildim. İki qollarımı açıb Romaya baxdım, o da qollarıma atıldı. Bərk-bərk sarıldım ona, qoxusu atamı xatırladırdı. Bir daha lap dərinə içi-mə çəkdim qoxusunu. Saçlarından öpüb, boğuq səsimlə dedim:

-Sağ ol həyatım, çox sağ ol.

Başımı qaldırıb bayaqdan bizi səssizcə izləyən anama baxdım. Yenə kipriklərı nəmli idi. Gülümsəyərək:

-Bu dəfə sevincdəndi - deyib indi də o mənə qolları açdı. Heç düşünmədən sarıldım ona. Biz belə idik. Bir-birimizin gücü idik, bir-birimizdən güc alaraq unutmağa və yaşamağa çalışırdıq, bacardıq da.

Səbinə QASIMOVA

Corabdan gəlincik




Ləvazimatlar:
Bir qalın corab
Bir kapron corab
Sintifon
Qayçı, atlas lent, iynə, sap.

Hazırlanması:
Qalın corabı kəsirik. Sintifonu kapron corabа doldururuq. Bədən və baş hissəni ayırmaq üçün sapla müəyyən yerdən bağlayırıq. Bədən hissəyə corabın uzun hissəsini geydirib boynunu altdakı bədən hissəyə tikirik. İynəni ortadan batıraraq ayaqlarını formaya salmaq üçün tikirik. Tikərkən sapı bərk dartmaq lazımdır ki, ayaq hissəsi bilinsin. Daha sonra qollarını formaya salmaq üçün eyni qaydada tikirik. Boyun hissədəki sap izləri bilinməsin deyə gəlinciyin boynuna atlas lent bağlayırıq. Corabın qısa hissəsini gəlinciyimizin başına keçirərək arxanın açıq qalan yerini tikib büzürük. Gəlinciyimizin üzünü istəyə uyğun sapla və ya yapışqan bəzəklərdən istifadə edərək düzəltmək olar. Yanaqlarını qırmızı karandaşla bəzəyə bilərsiz. Budur gəlinciyimiz hazırdır!












Vüqarə MƏMMƏDOVA

Uşaq serebral iflici



Uşaq serebral iflici termini ilk dəfə 1893-cü ildə məşhur alman psixoanalitik Ziqmund Freyd tərəfindən təklif edilmişdir.

Uşaq Serebral İflici baş beynin doğuşdan əvvəlki, doğuş zamanı və ya doğuşdan sonrakı dövrlərdə müxtəlif səbəblərdən zədələnməsi nəticəsində əmələ gələn, adətən, erkən uşaqlıq dövründə aşkarlanan və hərəki pozğunluqlarla ifliclər, əzələ zəifliyi, koordinasiya pozğunluqları, qeyri-iradi hərəkətlərlə xarakterizə olunan bir haldır.

Beyinin zədələnmə dərəcəsindən asılı olaraq meydana çıxan simptomların ifadə dərəcəsi də müxtəlif olur yüngül, zəif nəzərə çarpan və ya çox ağır, tam əlilliyə gətirib çıxaran zədələnmələrə qədər.

Bu uşaqlarda epileptik tutmalar, psixi inkişaf ləngiməsi, qavrama və öyrənmə çətinlikləri, görmə, eşitmə, nitq, intellekt pozğunluqları da müşahidə oluna bilər. Baxmayaraq ki, serebral iflicli uşaq çox zaman əqli inkişafdan geri qalmış uşaq kimi təəssurat yaradır, bu heç də hər zaman belə olmur.

Serebral iflicə oxşar vəziyyətlər istənilən yaşda keçirilmiş infeksion xəstəlikdən, insultdan və yaxud kəllə-beyin travmasından sonra əmələ gələ bilər.

Ziqmund Freyd tərəfindən təklif edilmiş nəzəriyyəyə görə uşaqda beynin zədələnməsi bətndaxili dövrdə baş verir. Digər alim – Uilyam Littl isə israr edirdi ki, zədələnmə doğuş prosesində baş verir və serebral iflic doğuş zamanı uşağın beynində oksigenin çatışmazlığının nəticəsi olur.

Lakin məlumdur ki, yenidoğulmuş uşaqlar oksigen defisitini daha yüngül keçirir və doğuş yollarından keçməsi bir qədər travmatik olsa da, adətən, beynin zədələnməsinə səbəb olmur.

Beləliklə, uşaq serebral iflicinin inkişaf etmə səbəbi tibdə hələ ki, dəqiq məlum deyil.

Son zamanlar alman nevroloqların geniş elmi tədqiqatları zamanı məlum olub ki, serebral iflicin inkişafına irsiyyət də müəyyən təsir edir. Belə ki, araşdırmalar zamanı aşkar olunub ki, ailədə serebral iflic halların olması, bu ailənin digər nəsillərində bu pozulmanın inkişaf etmə riskini artırır.

Hal-hazırda serebral iflicin risk faktorları aşağıdakılar hesab olunur

1. Hamiləlik dövründə

- Hamiləlik zamanı ananın infeksion xəstəliklərə tutulması (məs. məxmərək, herpes, sitomeqalovirus, toksoplazmoz və s.)

- Rezus-konflikt

-Anada olan bəzi xəstəliklər və pozulmalar (şəkərli diabet, hamiləlik toksikozu, qanaxmalar, anemiya, stress, pis qidalanma – vitamin və mikroelementlərin çatmamazlığı)

- Ananın zərərli vərdişləri (narkomaniya, siqaretçəkmə, alkoqoldan istifadə)

- Ananın yaş faktoru (18-dən aşağı, 35-dən yuxarı)

2. Doğuş zamanı

- Dölün asfiksiyası (boğulması)
- Doğuş travmaları
- Vaxtından əvvəl doğuşlar
- Gecikmiş doğuşlar

3. Doğuşdan sonra

- İnfeksiya və ya susuzlaşma nəticəsində yüksək bədən hərarətinin beyinə təsiri
- Beyin infeksiyaları
- Suda boğulma, qazdan zəhərlənmə və digər səbəblərdən baş verən oksigen çatmamazlığı
- Beyin travmaları
- Beyinə qansızma
- Məişət zəhərlənmələri
- Beyində şişlərin olması.

Serebral iflic hallarının 30%-nin səbəbi məlum deyil

İnkişaf etmiş ölkələrdə 1000 yenidoğulmuş uşaqdan 2-5-də serebral iflic aşkarlanır. Hal- hazırda bu pozulmanın artması tendensiyası müşahidə olunur.

Uşaq serebral iflici müalicəyə tabe olmur, lakin bu o demək deyil ki, belə uşaqlara kömək etmək qeyri-mümkündür. Yenidoğulmuş uşağın beyni bu zədələnmənin kompensasiyası üçün çox böyük potensiala malik olur. Buna görə də problemin erkən müəyyənləşdirilməsinin əhəmiyyəti çox böyükdür. Davamlı reabilitasiya tədbirləri nəticəsində serebral iflici olan uşaqlar gözəl nəticələr göstərə bilər.

Serebral iflici olan uşaqların bəzən öyrənməklə bağlı probemləri, eşitmə-görmə, yaxud əqli gerilik problemləri də ola bilər. Beynin məruz qaldığı zədələnmə nə qədər böyük ölçüdə olarsa, serebral iflic də bir o qədər kəskin olur.

Serebral iflici olan uşaqlar bir qayda olaraq mütəxəssis köməyinə və xüsusi qulluğa ehtiyac duyurlar: “Fiziki terapiya, əmək terapiyasının tətbiqi və nitq-dil patalogiyası ilə işləmək uşaqların vəziyyətlərini müsbət tərəfə dəyişir. Fiziki terapiya vasitəsilə yerimək, oturmaq, tarazlığı saxlamaq, əmək terapiyası vasitəsilə geyinmək, soyunmaq, qidalan-maq, yazmaq və s. uşaqlara öyrədilir. Nitq-dil patalogiyası ilə bağlı məşqlər zamanı isə dil və boğaz əzələlərinin gərilməsi ilə əlaqədar danışmaqda çətinlik çəkərsə, ünsiyyət bacarığında problemlər varsa, bunları aradan qaldırmaq istiqamətində işlər aparılır.

Mütəxəssislərin dediyinə görə bütün bu fəaliyyətlərdə valideynlərin dəstəyinə ehtiyac duyulur. Bir valideyn kimi övladınıza qarşı sevgiylə, qayğıyla yanaşın. Onunla oynayın, onu anlamağa çalışın. Səbirli və təmkinli olun. Övladınızın yaxşılaşmasına ümid bəsləməkdə davam edin. Yardımçı ola biləcək yeni müalicələr və texnologiyalar haqqında məlumatlar toplayın. Ancaq sınaqdan keçməmiş “yeniliklər”ə qarşı ehtiyatlı olun. Hər bir uşaq kimi sizin də övladınızın qarşısında öyrənmək və inkişaf etmək üçün tam bir ömür müddəti var.

Kəmalə HÜSEYNOVA



Gülxətmi bitkisi

Gülxətmi cinsinə aid çoxillik ot bitkiləri olub, güclü kök sisteminə malikdir. Gülxətmi cinsinin 60–a qədər növü dünyanın əksər ərazilərində yayılmışdır. Bunlardan dərman bəlğəmotu bitkisi elmi təbabətdə geniş yayılmışdır.

Dərman bəlğəmotu çoxillik, 60–100 sm uzunluqda, bozumtul–yaşıl yerüstü gövdəli, yoğun, iri şaxəli köklərə malik bitkidir. Kökümsovu qısa və yoğundur. Növbə ilə düzülmüş, enli yumurtaşəkilli, 3–5 dilimli, kənarları küt dişli, üst və alt səthi yumşaq məxməri tüklərlə örtülmüş saplaqlı yarpaqları var. Yarpaqlarının qoltuğunda yerləşmiş solğun çəhrayı rəngli çiçəkləri, gövdə və budaqlarının yuxarısında uzun sünbülvarı çiçəkqrupuna toplanmışdır. Gülxətmi bitkisindən dərman, boyaq, yem və bəzək bitkisi kimi istifadə olunur. Toxumlarında 25% yağ vardır. Köklərindən hazırlanan 5%–li dəmləməsi, cövhər və həblər nəfəs yollarının iltihabında ağciyər xəstəliklərində, bəlğəmgətirici, mədə – bağırsaq xəstəliklərində və eləcə də boğaz ağrılarında qarqara dərmanı kimi geniş istifadə olunur. Xalq təbabətində yarpaq, çiçək və köklərindən hazırlanmış cövhər öskürəyə qarşı və sinə ağrılarında sakitləşdirici vasitə kimi qədimdən məlumdur. Uşaqlarda baş verən soyuqdəymələr zamanı çiçəklərini suda pörtlədib ağrıyan nahiyələrə kompres kimi qoyurlar. Quru öskürəklərdə gülxətmi çiçəklərini, qızılgül ləçəkləri və şüyüd toxumları ilə qarışdırır və dəmləyib çay kimi içirlər. Təzə dərilmiş yarpaqları dəri yaralarını sağaldır.

Tünd çəhrayı rəngdəki xətmi çiçəyi yalnız bir bəzək bitkisi olaraq istifadə edilmir.

Xalq arasında "gülxətmi, silindr çiçəyi, dəvə gülü" kimi adlarla da xatırlanan bu bitki tərkibindəki çox pektin, nişasta, jelatin və daha bir çox komponentlə sizə faydalı olacaq bir təsirə sahibdir. Gülxətmi çiçəyinin ən faydalı qismi kökləridir.

Bədənə rahatlıq və gümrahlıq verən bu bitkinin ən əhəmiyyətli xüsusiyyətlərindən biri tənəffüs yollarına saysız faydası olmasıdır. Tənəffüs yolları infeksiyası keçirən kəslərdə iç səthi yaxşılaşdıran bu möcüzəvi bitki, sinə bölgəsini yumşaldaraq bəlğəmin bədəndən atılmasına da kömək olur. Xüsusilə qış aylarında tez-tez təsadüf olunan soyuqlamalarda, qrip, soyuqdəymə kimi xəstəliklərlə mübarizə aparmaq üçün gülxətmi çiçəyini istifadə edə bilərsiniz. Eyni zamanda bronxit və farangit kimi xəstəliklərə də olduqca yaxşı təsir göstərən bu bitki tənəffüs sistemi xəstə-

liklərində əvəzsizdir.

Həzm sistemi üzərində də yaxşı təsiri var.

İltihab əleyhinə və antimikrobial xüsusiyyətlərə malik gülxətmi çiçəyi tənəffüs yollarında təsirli olduğu qədər həzm sistemi üzərində də bir sıra müsbət təsirə malikdir. Mədə xorası, mədə iltihablanması kimi xəstəliklərin sağalmasına köməkçi olan bu çoxfunksiyalı bitki, eyni zamanda köp və qaz kimi şikayətlərin aradan qaldırılmasında da böyük rol oynayır. Əgər xroniki qəbizlikdən şikayətçisinizsə, gündəlik bəslənmənizdə gülxətmi çiçəyinə yer ve-rərək bu problemi ortadan qaldıra bilərsiniz.

Xətmi çiçəyi, sidik yollarında da möcüzəvi təsirlərə malikdir. Əgər sidik yolu infeksiyası keçirirsinizsə, böyrəkləriniz iltihablanmışsa və ya böyrək daşı sancısından şikayətiniz varsa xətmi çiçəyinin təsirindən bu çətinliklərdən xilas ola bilərsiniz. Sidik qovucu təsiriylə də məşhur olan bu bitkini içdiyiniz su miqdarını artırmaq şərtiylə qəbul edə bilərsiniz.

Sızanaq və ləkələrə qarşı da təsirlidir.

Möcüzəvi xətmi çiçəyini çay olaraq qəbul etməklə yanaşı, çiçəyin yarpaqlarını bir miqdar su ilə birgə sıyıq halına gətirərək bədəninizdəki sızanaq, yara və ləkələrin üzərinə sürtməklə istifadə etsəniz təsirini gözlə görə bilərsiniz. Müsbət nəticə əldə etmək üçün bu əməliyyatı nizamlı olaraq təkrarlamaq lazımdır.

Ağız və diş sağlamlığına da bir çox faydası olan bu bitkidən əldə edilən çayla qarqara edərək, ağız və diş əti iltihablanmalarını və diş əti çəkilmələrini müalicə edə bilərsiniz.

Gülxətmi çayı necə hazırlanır?

Gülxətmi çiçəyinin yarpaqları qurudulur. 1 litr qaynar suyun içinə 3 xörək qaşığı qurudulmuş çiçək tökülür, 10-15 dəqiqə dəmlənir, çay kimi içilir. İstəsəniz içərisinə mixək və darçın ataraq iştahınızın və qan şəkərinizin tarazlanmasını da təmin edə bilərsiniz. Bu dəmləmə ilə üzü yumaq, üzdəki ləkələrin yox olmasına kömək edəcək.

Tənəffüs yolları narahatlıqları yaşayanlar xətmi çiçəyini su yerinə ilıq südün içərisinə ataraq qəbul edə bilərlər. Qadın xəs-təliklərində gülxətmi çiçəyi dəmləməsi qoruyucu təsir göstərir. Soyuqdəymə hallarında bəlğəmli öskürək zamanı 10 gün gülxətmi çiçəyinin dəmləməsi çox effektli təsir edir. Uşaqlara gülxətminin siropun-dan da istifadə etmək olar. Yaxud qaynanmış bir stəkan isti südün içərisinə 4-5 qram gülxətmi tökülür. Bir neçə dəqiqə gözlədikdən sonra qurtum-qurtum içilir. Gündə iki dəfə təkrarlana bilər. 6 yaş və bu yaşdan yuxarı uşaqlara vermək olar. Həmçinin kökəldici funksiyası var.

Gülxətmi çiçəyinin bir zərəri yoxdur. Lakin hər bir bitki dəmləməsi çox içilərsə, fəsad verə bilər. Ona görə fasilələrlə içilsə, yaxşı olar.

Gülxətmi çiçəyindən hazırlanan çay, 6 yaşından kiçik uşaqlarda və hamilələrdə heç bir şəkildə istifadə edilə bilməyəcəyi kimi, sağlam yetkin fərdlərin də gündə 1-2 fincandan çox qəbul etməməsi məsləhətdir. Xroniki bir xəstəliyə sahib olan, nizamlı olaraq dərman istifadə edən, hər hansı bir müalicəyə davam edən kəslərin bu çayı qəbul etmədən əvvəl həkimlə məsləhət et-mələri vacibdir.

Qeyd: *Əvvəlcə, istifadə edəcəyiniz bitkiyə qarşı allergiyanızın olub olmadığını bilmək lazımdır.*



Toyuqlu gül kələmi salatı



Ərzaqlar:
1 toyuğun filesi
1 ədəd orta ölçüdə gül kələmi
1 banka qarnir (qarğıdalı, yaşıl noxud, kök qarışımı)
1,5 st. qatıq
1 x.q. mayonez
1 diş rəndələnmiş sarımsaq
Yarım dəstə şüyüd
Duz, istiot

Hazırlanması:
Gül kələmini əlimizlə xırdalayıb qazanda yumşalana qədər pörtlədirik. Toyuq filesini qaynadırıq və soyuduqdan sonra didirik. Konserva qarniri suda yaxalayırıq. Dərin bir qaba qatığı, mayonezi, sarımsağı əlavə edib çırpıcı ilə yaxşı çalırıq. Sonra gül kələmini, toyuq ətini, qarniri, xırda doğranmış şüyüdü, duz və istiotu da əlavə edib qaşıq yardımı ilə qarışdırırıq. Nuş olsun!

Toyuq kababı



Ərzaqlar:
1 toyuq
2 x.q. zeytun yağı
Duz, kəklikotu, zirə, qırmızı və qara bibər
1 diş sarımsaq
1 x.q. qatıq
Pomidor (İstəyə görə)
Bibər (İstəyə görə)

Hazırlanması:
Toyuğu yuyub bir az iri doğrayırıq. Toyuğu dərin qaba yığırıq, sonra duz və ədviyyatları, qatığı, zeytun yağını əlavə edib qarışdırırıq. Qabın üzərini streç ilə örtüb ən az 2 saat soyuducuda saxlayırıq. Soyuducudan çıxardıb çöp şişlərə keçiririk. İstəyə görə pomidor və bibər doğrayıb ətin aralarına və ya ayrıca çöp şişə keçirə bilərsiniz. Listə düzüb 200 dərəcə qızdırılmış sobada bişirin. Burada diqqət etmək lazımdır ki, toyuq əti çox bişməsin. Yoxsa ət quru və bərk olar. Nuş olsun!

Sadə bulka



Ərzaqlar:
Yarım paket yaş maya
1 st. ilıq süd
Yarım armudu st. şəkər tozu
1 paket vanil
1 x. q. bal
1 ç.q. duz
2 ədəd yumurta
Yarım armudu st. əridilmiş kərə yağı
Apardığı qədər un
Üzəri üçün:
Yumurta
Hazırlanması:
Əvvəlcə duru ərzaqlar çırpılır. Un az-az əlavə edib yumşaq xəmir yoğururuq. 1 saat mayalanmağa qoyuruq. Xəmiri 16 bərabər kündəyə ayırırıq. Sonra nəlbəki böyüklüyündə açıb rulet kimi bükürük. Soba listinə düzüb yarım saat dinləndiririk. Üzərinə yumurta çəkib öncədən qızdırılmış sobada üstü qızarana qədər bişiririk. Nuş olsun!

Qurabiyə



Ərzaqlar:
150 qr. kərə yağı
2 yumurta sarısı
1 st-dan bir az əskik pudra şəkəri
1 x.q. su
Yarım st. qoz və ya fındıq ləpəsi
Yarım st. damla şokolad
1 paket vanil
1 paket qabartma tozu
Apardığı qədər un
Hazırlanması:
Otaq temperaturundakı kərə yağını pudra şəkəri ilə çırpırıq. Yumurta sarıları, vanil, su, qabartma tozunu əlavə edib təkrar çırpırıq. Az-az unu da əlavə edib qoz və ya fındıq ləpəsi, damla şokoladı da töküb xəmir yoğururuq. Stola streç sərib xəmiri rulet halına salırıq. Yarım saat soyuducuda saxlayırıq. Sonra xəmiri barmaq enində kəsib soba listinə üfüqi düzürük. Öncədən 160 dərəcə qızdırılmış sobada 15-18 dəqiqə altı bir az qızarıb üstü ağ qalacaq şəkildə bişiririk. Nuş olsun!

Nəsihət

Halal loxmanın qaynağı, təmiz qazanıb təmiz yemək olduğu qədər yeməklərin göz haqqından da mühafizə edilmiş olmasıdır. Çünki gözlərin və könüllərin baxdığı qidalarla bəslənmək, ruhumuza böyük bir yük olub ibadət həyatımızdan ləzzət almağa və tənbəllik göstərməyə aparır.

Dünən uşaqdıq, gəncdik, yeniyetməydik. Bu gün də bu yaşda və ya bu mövqedəyik. Mövcud vəziyyətimiz nə olursa olsun, əsla etiraz edilə bilməyəcək bir həqiqətin ortasında olmalıyıq. O həqiqət də budur: Bu gün olduğumuz vəziyyət, əvvəli olan bir vəziyyətdir. Bu günümüz, dünənimizin üzərinə quruludur. Sabahla əlaqəli bir qiymətləndirmənin sağlam olması, bu günün dünənə görə mühasibliyinə bağlı olacaq. Hansı yaş və hansı mövqedə olsaq olaq, hər mömin insan üçün yeganə təsbit budur. Dünənin hesabatını etmədən sabahı planlamaq, sabahkı gün üzərindən xəyallar qurmaq məqbul deyil.